**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XƏZƏRLƏR AVRASİYA XALQLARI VƏ AZƏRBAYCAN TARİXİNDƏ (VI - X yüzilliklər)

İxtisas: 5502.01 - Ümumi tarix
Elm sahəsi: Tarix

İddiaçı: **Fərda Məhərrəm oğlu Əsədov**

Elmər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:**

AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Nailə Məmmədəli qızı Vəlixanlı**

AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Şahin Məcid oğlu Mustafayev**

Qazaxıstan EA həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Bulat Eşmuxambetoviç Kumekov**

Tatarstan EA həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Ayrat Qabitoviç Sitdikov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________
tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının Elmi katibi: ____________
tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi Seminarın sədri: ____________
tarix elmləri doktoru, professor
**Habil Nurkişi oğlu Məmmədov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və öyrənilməsi dərəcəsi.** Dissertasiyanın adından da göründüyü kimi, onun elmi aktuallığı təbii olaraq işin məzmununun Mərkəzi Asiya, Xəzər dövləti, eləcə də Azərbaycan və Azərbaycan xalqının ilkin orta əsrlər tarixi məsələlərinə münasibəti ilə müəyyən olunur. Üç əsr boyunca – ərəblərin Cənubi Qafqazda peyda olması və xilafətdə mərkəzi siyasi hakimiyyətin çöküşünə qədərki dövr ilə eyni vaxtda, - yəni VII əsrin ortalarından X əsrin ortalarına qədər, müasir Azərbaycan ərazisinin şimal sərhədlərində türk xəzərlərin qüdrətli dövləti mövcud olmuşdur. Müasir İran İslam Respublikasının şimalındakı tarixi vilayətin – Azərbaycanın taleyi, həmçinin bir vaxtlar indiki Azərbaycan Respublikasının hüdudlarını təşkil etmiş Qafqaz Albaniyasının ərazisi olan Arran və Şirvanın, eləcə də bu məkanda məskun olan xalqların taleyi VII – X əsrlərdə xəzərlərin və ərəblərin qarşılıqlı əlaqələri nəticəsində həll olunurdu. Xəzərlər Cənubi Qafqazı tərk eməyə məcbur qalmış, Dərbənd onlarla müsəlman torpaqları arasında sərhəd şəhərinə çevrilmişdir. Beləliklə, Azərbaycan Ərəb xilafəti hökmranlığı altına keçmiş, ölkənin demoqrafik, iqtisadi və mədəni həyatı müsəlman dünyasının siyasi həyatının, inzibati quruluşunun, din və mədəniyyətinin amilləri ilə müəyyən olunmuşdur.

Lakin Mərkəzi Asiyanın türk dövlətlərindən, məsələn Türgeş xaqanlığından, fərqli olaraq Xəzər dövləti sarsılmamış, hətta daha da güclənərək Mərkəzi Avrasiyada öz təsirini Şərqi Avropanın bir çox köçəri tayfa və oturaq xalqlarına yaya bilmişdir. Xəzər dövlətinin möhkəmlənməsi uzun sürən qanlı müharibələr dövründən sonra VIII əsrin sonunda Xəzər xaqanlığı və Ərəb xilafəti arasında bərqərar olmuş sabitlik və iqtisadi əməkdaşlığa imkan yaratmışdır. Xəzər dövləti dönəmi Mərkəzi Avrasiyanın tarixində mühüm mərhələ təşkil edir. Bu dövrdə regionun siyasi və etnik xəritəsinin yeni konfiqurasiyası formalaşmışdır. Həmin dövr Cənubi Qafqaz subregionu üçün də beləcə həlledici olmuşdur. Sasanilərdən sonrakı dönəminin üç əsri boyunca, X əsrin birinci yarısında siyasi

çöküşünədək Xəzər dövlətinin hakim rol oynadığı, müsəlman Yaxın Şərqi və Mərkəzi Avrasiya arasındakı təmas zonasında yerləşən Cənubi Qafqazın etnik tərkibinin, dini durumunun, siyasi ənənələrinin, iqtisadi bazasının və beynəlxalq iqtisadi əlaqələrinin əsas parametrləri müəyyən olunmuşdur. Hazırda Azərbaycan xalqının vətəni olan məkana xəzərlərin və Xəzər dövlətinin, eləcə də onların Ərəb xilafəti ilə qarşılıqlı əlaqələrinin təsiri yalnız xəzərşünaslıq araşdırmalarının az öyrənilmiş problemi deyil, həm də Azərbaycan tarixşünaslığının özündə olaraq gündəliyə daxil edilməmiş aktual məsələdir.

Xəzərlərin kimliyi, dövlətlərinin xüsusiyyətləri, onların başqa xalqların və dövlətlərin tarixində hansı rol oynamaları barədə mübahisələr hələ XVIII əsrin ortalarında xəzər yazışmalarını əks etdirən sənədlərin – ivrit dilində saxlanmış bir neçə məktubun tapılıb üzə çıxarılması və dərc edilməsi anından başlamışdır. Onların orijinallığı barədə alimlərin fikirləri də haçalanmışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Qərb alimlərinin bir neçə tədqiqatı dərc olunmuşdur ki, bu gün onları köhnəlmiş hesab etmək olar. Biz onlardan yalnız müasir tədqiqatçıların hələ də diqqət mərkəzində olan ikisini qeyd edəcəyik[1].

Rusiyada xəzərlərlə bağlı ilk akademik araşdırma rus şərqşünası V.V.Qriqoryevin (1816-1881) qələminə məxsusdur. O xüsusi olaraq Xəzər dövlətinin siyasi tarixini, dövlət quruluşunu və onun Rusla əlaqələrini tədqiq etmişdir[2]. XX əsrin birinci yarısında ivrit dilində yeni xəzər sənədlərinin tapılıb dərc edilməsi xəzərlər və Xəzər dövləti ilə bağlı tədqiqaqtlara böyük təkan vermişdir. Kembric

---

[1] Howorth, H.H. The Khazars: Were They Ugrians or Turks? // Travaux De La Troisieme Session Du Congres International Des Orientlalistes, - SPb.: - 1876, - pp. 1-25; Kutschera, H. Die Chasaren, Historische Studie; Ein Nachlass, 2. aufl. ed. - Wien: A. Holzhausen, - 1909, 271 s.

[2] Григорьев, В.В. О двойственности верховной власти у хазаров // - СПб: Журнал Министерства народного просвещения (ЖМНП) - 1834, ч. 3, - с. 279-295; О древних походах русов на Восток // - СПб.: Журнал министерства народного просвещения (ЖМНП) - 1835, ч. 5, - с. 229-288; Обзор политической истории хазаров // - СПб.: “Сын Отечества" и "Северный Архив" - 1835, т. 58, - с.566-595.

məktubu[3] adlandırılan sənəd dərc edilmiş, eləcə də Xəzər xaqanı İosifin məktubları üzə çıxarılılmış və rus dilində tərcüməsi şərhlərlə birlikdə elmi döriyyəyə daxil edilmişdir[4]. Sonuncu nəşr həmçinin xəzər yazışmalarının həmin vaxtadək məlum olan bütün sənədlərini əhatə etmişdir. Xəzər xaqanlığı ilə assosiasiya edilən Saltovo-Mayatsk mədəniyyətinə aid perspektivli sahələrdə intensiv arxeoloji işlərə başlanmışdır[5].

Heç şübhəsiz ki, İkinci dünya müharibəsi xəzərlərin tarixinin öyrənilməsi prosesini ləngitməyə bilməzdi. Lakin bununla birlikdə, müharibənin nəticələri alimlərin və ictimaiyyətin diqqətini iudaizm və yəhudi tarixinin problemlərinə yönəltdi ki, xəzər tarixinin bəzi məsələlərinin də buna aidiyyəti vardı. 1962-ci ildə Kiyevdən olduğu ehtimal edilən xəzər-yəhudilərin əvvəllər məlum olmayan və qiymətli məlumatlar ehtiva edən məktubunun tapılması və ardınca dərc olunması[6] xəzər iudaizminin xüsusiyyərlərinin eləcə də onların öz qonşuları ilə əlaqələri öyrənilməsi üçün mühüm hadisəyə çevrildi. SSRİ-nin dağılmasından sonra və keçmiş sovet xalqlarının milli tarixşünaslıqlarının inkişafının yeni mərhələyə daxil olması ilə əlaqədar olaraq xəzərşünaslıq araşdırmalarının coşqun inkişafı daha da gücləndi. Bu araşdırmaların heç olmasa əsas hissəsi ilə tanış olmaq və onları xarakterizə etmək belə, kifayət qədər çətin, bəlkə də yerinə yetirilməsi mümkün olmayan məsələdir. Həmin dövrdən başlayaraq xəzər tədqiqatlarının gündəliyi belə formalaşdı: xəzərlərin

---

[3] S Schechter, S. An Unknown Khazar Document // The Jewish Quarterly Review – 1912, 3, no. 2, - p. 181-219.

[4] Коковцов, П.К. Еврейско-Хазарская Переписка / П.К. Коковцов. – Ленинград: Издательство Академии Наук СССР, - 1932. - 132 с.

[5] Артамонов, М.И. Средневековые поселения на Нижнем Дону // - Ленинград: Известия Государственной академии истории материальной культуры, - 1935, № 131, - 135 с.; Очерки Древнейшей Истории Хазар /М.И. Артамонов. - Ленинград: Соцэкгиз-ГАИМК, - 1936. - 136 с.; Саркел и некоторые другие укрепления северо-западной Хазарии // - Москва: Советская археология, - 1940, № 6б - с. 130-167; Белая Вежа // - Москва: Советская Археология, - 1952, 16, - с. 42-76.

[6] Golb, N. Khazarian Hebrew Documents of the Tenth Century / N. Golb, O. Pritsak, - Ithaca, N.Y.: Cornell University Press, - 1982, - 166 p.

mənşəyi, xəzərlərin Qafqazda peyda olmalarının vaxtı, Xəzər dövlətinin süqutunun və yox olmasının səbəbləri, xəzərlərin və xəzər irsinin taleyi[7], Xəzər xaqanlığının ərazisi[8], Xəzər xaqanlığının dövlət

[7] Dunlop, D.M. The History of the Jewish Khazars / D.M.Dunlop. - Princeton: Princeton University Press, - 1954, - 293 p.; Артамонов, М.И. История Хазар / М.И. Артамонов. - Ленинград: Эрмитаж, - 1962. - 523 с.; Голб, Н. Хазарско-Еврейские документы X века / Н. Голб, О. Прицак. Перевод с английского В.Л.Вихновича, - Москва-Иерусалим: Гешарим, - 1997. - 239 с.; Плетнева, С.А. Хазары / С.А. Плетнева. - Москва: "Наука", - 1976. - 96 с.; Гадло, А.В. Этническая история Северного Кавказа В IV-X вв. / А.В. Гадло. - Лениград: Издательство Ленинградского Университета, - 1979. – 213 с.; Новосельцев, А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа / А.П. Новосельцев. - Москва: "Наука", - 1990. - 263 с.; Golden, P.B. Khazar Studies: An Historico-Philological Inquiry into the Origins of the Khazars: [in 2 volumes] / P.B. Golden. - Budapest: Akademiai Kiado, - vol. 1. - 1980. - 291 p.; Ludwig, D. Struktur und Gesellschaft des Chazaren-Reiches im Licht der schriften Quellen / D. Ludwig. – Munster: Westfälischen Wilhelms-Universität, - 1982. - 374 s.; Гумилев, Л.Н. Древняя Русь и Великая Степь / Л.Н. Гумилев. - Москва: Мысль, - 1989. - 764 с.; Golden, P. B. Khazar Studies: Achievements and Perspectives // The World of the Khazars: New Perspectives. Selected Papers from the Jerusalem 1999 International Khazar Colloquium Hosted by the Ben Zvi Institute, ed. Peter B. Golden, Haggai Ben-Shammai, and Andras Rona-Tas, - Leiden: Brill, - 2007, - p. 7-57.

[8] Гумилев, Л.Н. Открытие Хазарии: историко-географические этюды / Л.Н. Гумилев. - Москва: Наука, Главная редакция восточной литературы, - 1966. - 188 с.; Михеев, В.К. Подонье в составе хазарского каганата / В.К. Михеев. - Харьков: Выща школа, - 1985. - 148 с.; Noonan, T. S. Byzantium and the Khazars: A Special Relationship? // Byzantine Diplomacy: Papers from the Twenty-Fourth Spring Symposium of Byzantine Studies. Ed. J.Shepard & S.Franklin, - Cambridge: - March 1990, - Variorum, - 1992, - p. 109-132; Гадло, А.В. Предыстория Приазовской Руси, Очерки истории русского княжения на Северном Кавказе / А.В. Гадло. - СПб: Издательство Петербургского Университета, - 2004. - 358 с.; Ромашов, С.А. Историческая география Хазарского каганата. Глава 1-2 // Archivum Eurasiae Medii Aevi, – 2001, v. 11, - с. 219-238; Историческая география Хазарского каганата. Глава 3 // Archivum Eurasiae Medii Aevi, - 2004, v. 12, - с. 81-221; Историческая география Хазарского каганата. Глава IV-V // Archivum Eurasiae Medii Aevi, - 2004, v. 13, - с. 185-264; Историческая География Хазарского каганата. Глава VI // Archivum Eurasiae Medii Aevi, - 2005, v. 14, - с. 107-196.

institutları[9], xəzərlərin dini və Xəzər dövlətində dini durum[10], xəzərlərin qüdrətinin iqtisadi əsasları[11], Mərkəzi Avrasiyada xəzər dövrü maddi mədəniyyətinin xüsusiyyətlər[12]. Bu məsələlərə müxtəlif

---

[9] Györffy, G. Dual Kingship and the Seven Chieftains of the Hungarians in the Era of the Conquest and the Raids // Acta Orientalia (Academiae Scientiarum Hungaricae), - 1994, v. 47, no. i-ii, - p. 87-104; Golden, P.B. Khazar Turkic Ghulâms in Caliphal Service // Journal Asiatique, - 2004, v. 292, no. 1-2, - p. 279-309; Golden, P.B. Irano-Turcica: The Khazar Sacral Kingship Revisited // Acta Orientalia, - 2007, v. 60, no. 2, - p. 161-194.

[10] Pritsak, O. The Khazar Kingdom's Conversion to Judaism // Harvard Ukrainian Studies, - 1978, no. 2, - p. 261-281; Kovalev, R.K. Creating Khazar Identity through Coins: The Special Issue, Dirhams 837/8 // East Central & Eastern Europe in the Early Middle Ages, ed. Florin Curta, - Ann Arbor, the USA: The University of Michigan Press, - 2005, - p. 220-251; Golden, P. B. The Conversion of the Khazars to Judaism // The World of the Khazars, ed. H. Ben-Shammai, A. Rona-Tas. P.B.Golden, - Leiden: Brill, - 2007, - p. 123-162; Флеров, В.С., Флерова, В.Е. Иудаизм в степной и лесостепной Хазарии: проблема идентификации археологических источников // Хазары. Серия «Евреи и славяне», ред. В. Москович, В. Петрухин, А. Федорчук, А. Кулик, Д. Шапира, - Иерусалим, Москва: Гешарим/Мосты культуры, - 2005, vol. 16, - с.185-207. URL: http://domongol.org/viewtopic.php?f=11&t=10704; Петрухин, В. Флёров, В. Иудаизм в Хазарии по данным археологии // История еврейского народа в России. От древности до раннего нового времени, - Москва: Мосты культуры/Гешарим, - 2010, - с. 149-161.

[11] Noonan, T.S. Did the Khazars Possess a Monetary Economy? An Analysis of the Numismatic Evidence // Archivum Eurasiae Medii Aevi, - 1982, 2, - pp. 219-267; What Does Historical Numismatics Suggest About the History of Khazaria in the Ninth Century // Archivum Eurasiae Medii Aevi, - 1983, 3, - pp. 265-281; Noonan, Th.S. Khazaria as an Intermediary between Islam and Eastern Europe in the Second Half of the Ninth Century: The Numismatic Perspective // Archivum Eurasiae Medii Aevi, - 1987, no. 5 (1985), - pp. 175-204; Kovalev, R.K. What Does Historical Numismatics Suggest About the Monetary History of Khazaria in the Ninth Century? Question Revisited // Archivum Eurasiae Medii Aevi, - 2004, v. 13, - pp. 97-129; Noonan, Th. S. Some Observations on the Economy of the Khazar Khaganate // The World of the Kghazars, ed. H. Ben-Shammai and A. Rona-Tas. eds. P.B.Golden, - Leiden: Brill, - 2007, - pp. 207-245.

[12] Плетнева, С.А. От кочевий к городам. Салтово-Маяцкая культура / С.А. Плетнева. - Москва: Академия Наук СССР, Институт археологии, - 1967. - 209 с.; Очерки хазарской археологии / С.А. Плетнева. - Москва, Иерусалим: Мосты культуры/Гешарим, - 1999. – 247 с.; Флерова, В.Е. Граффити Хазарии

ölkələrin alimlərinin, o cümlədən Rusiya şərqşünaslarının xeyli əsəri həsr olunmuşdur ki, onlardan da əsaslarının adları yuxarıda çəkilmişdir.

*Xəzərşünaslıq dünya tarixi kontekstində.* Müsəlman-ərəblərin Qafqazda qarşılarının kəsilməsini tarixçilər Puatye yaxınlığında islam və xristian dünyası arasında sərhədləri müəyyənləşdirən həlledici döyüşdə fransızların ərəblərə qalib gəlməsi ilə müqayisə edirlər[13]. İudaizmin qəbul edilməsi və bunun arxasınca xəzər toplumunun, eləcə də Xəzər dövləti siyasətinin transformasiyasının Şərqi Avropanın yəhudi və aşkenazi yəhudi icmalarının formalaşması tarixinə aidiyyəti var. Tədqiqatçıların bir qismi bu hadisəni aşkenazi yəhudilərinin mənşəyi məsələsi ilə əlaqələndirirlər[14]. Aşkenazilərin xəzərlərlə etnik əlaqələri maraqlı bir şəkildə Yaxın Şərqdəki hazırkı vəziyyətlə, müasir ərəb-israil münasibətləri ilə əlaqələndirilir. Bəzi müasir ərəb müəllifləri yəhudi aşkenazilərin İsrail mənşəli olması fikrinin mübahisəliliyini, onların xəzər-türkləri, qafqazlılar və şərqi slavyanlarla bağlılığını əsas gətirərək *aliyaya* (İsrailə repatriasiya) hüquqlarının olmadığını bildirirlər[15].

Xəzərlərin şərqi slavyanların dövlətçiliyinin yaranmasındakı rolu və onların Kiyev Rusu ilə əlaqələri barədə məlumatların

---

/ В.Е. Флерова. - Москва: Эдиториал-УРСС, - 1997. - 176 с.; Флёров, В.С. «Города» и «Замки» Хазарского каганата. Археологическая реальность / В.С. Флёров. - Москва: Мосты культуры, - 2010. - 260 с.

[13] Dunlop, D.M. The History of the Jewish Khazars, p. X; Golden, P. B. Khazar Studies : An Historico-Philological Inquiry into the Origins of the Khazars, p.14.

[14] Kutschera, Die Chasaren, Historische Studie; Ein Nachlass; Poliak, A. Khazaria - Toldot Mamlacha Yehudit Beeropa [Khazaria: History of a Jewish Kingdom in Europe] /A. Poliak. - Tel Aviv: - 1943. – 194 s.; Koestler, A. The Thirteenth Tribe: The Khazar Empire and Its Heritage / A. Koestler. - London: Hutchinson, - 1976. – 219 p.; Brook, K.A. The Jews of Khazaria / K.A. Brook. - Lanham, Md.: Rowman & Littlefield, - 2nd ed., - 2006. – 317 p.; Sand, S. The Invention of the Jewish People / S. Sand. - London, New York: Verso, - English ed., - 2009. – 332 p.

[15] Amer, Abd al-Aziz Muhammad Ali. Israil Daulat Al-Khazar Al-Mutahawwada: Sha'buha Leysa Min Bani Israil at-Tauratiyyin / Abd al-Aziz Muhammad Ali Amer. - al-Qahira: Maktabat Jazirat al-Ward, - 2011. - p. 9.

interpretasiyası da siyasi kontekstlə qəlizləşib. Bu yanaşmaya görə, “İlkin Rus” iki ölümcül təhlükənin – varyaq (skandinav) və xəzər təhlükəsinin arasında olmuşdur. Bəzi Rusiya yazarlarının fikrinə görə, əgər birincilərlə nəsə bir növ simbioz və qarşılıqlı nüfuz baş versə də, xəzərlər əbədi düşmən olmuş və Rus məhz onlarla mübarizədə ayağa qalxmışdır[16].

*Xəzərlərin erkən tarixinin Xəzəryanı vilayətlərlə əlaqəsi.* Şərqi Avropa və Mərkəzi Avrasiyanın bir çox xalqlarının erkən tarixləri xəzərlərin tarixi ilə əlaqəli olmuşdur.

Ötən əsrin 80-ci illərində görkəmli sovet-azərbaycan şərqşünası akademik Z.M.Bünyadov mənə ərəb müəlliflərinin türklər haqqında erkən orta əsr traktatların tərcümə və tədqiqini təklif etdi. Nəticədə, ərəb dilində yazılmış mətnlərlərdən istifadə imkanı olmayan türkoloqların öz tədiqiqat işlərində faydalanmaq üçün müraciət etdiklərini düşündüyüm bir kitab[17] işıq üzü gördü. Tərcümə və tədqiq edilmiş traktatlar arasında İbn əl-Fəqih əl-Həmədaninin “*Kitab əxbar əl-Buldan*” adlı əsərinin Məşhəd əlyazmasından “Türklər haqqında”, eləcə də “Bəzi türk şəhərləri və onların qeyri-adi xüsusiyyətləri haqqında” adlı fəsillər də vardı. Bu fəsillərə izahların yazılması üçün böyük zəhmət və səy tələb olundu. İşin gedişində ərəb mənbələrindəki çox sayda məlumatları, o cümlədən ərəblərin Şərqə istilaçılıq yürüşlərinin başlanğıcında qarşılaşıb savaşdıqları Cənubi Xəzərətrafının Gürgan vilayəti türkləri haqqında az məlum olan məlumatları araşdırmaq lazım gəldi.

---

[16] Son onilliklərdə rus ədəbiyyatında xəzərləri Rusiya tarixində ümumiləşdirilmiş düşman obrazında təqdim edilməsi xüsusilə gözə çarpır.. Məsələn, bax: Манягин, В.Г. Операция "Белый дом": Хазары в русской истории // Хазары: таинственный след в русской истории, под ред. В. Манягин, - Москва: Алгоритм, ЭКСМО, - 2010, - с. 191-236. Bu fenomen müasir tədqiqatçı V. Şnirelmanın araşdırmalarında xüsusi yer tutur, düzdür bu onun bu mövzuda tədqiqatlarını heçdə tam balanslaşdırılmış və neytral hesab etmək olmur – məsələn: Шнирельман, В.А. «Отомстить Неразумным Хазарам…». Хазарский миф и его создатели // Образ Врага, под ред. Л. Гудков; Н. Конрадова, - Москва: ОГИ, - 2005, - с. 248-275.

[17] Асадов, Ф.М. Арабские источники о тюрках в раннее средневековье / Ф.М. Асадов. - Баку: Элм, - 1993. - 203 с.

Bu türklər haqqında dağınıq məlumatların toplanıb öyrənilməsi onların Cənubi Xəzərətrafına erkən dövrlərdə gəlib məskunlaşması, eləcə də Xəzərətrafı Gürganda müstəqillik qabiliyyətini IX əsrin 30-cu illərinədək qoruyub saxlaya bilmiş kiçik türk dövlət təsisatının yaranması barədə fikir yürütməyə imkan verdi[18]. Onu da qeyd edək ki, ərəblərin təsəvvüründə türk əhalinin məhz bu hissəsi ümumi əcdadları vasitəsilə peyğəmbər İbrahimin oğullarına gedib çıxan və onlarla genoloji əlaqəsi olan toplum idi[19]. Onlar haqqında deyilənlər sırasında xəzərlərlə qohumluq barədə də qeyd edilirdi. Heç şübhəsiz ki, bu əfsanə ərəblərin ayrı-ayrı insan topluluqlarının əlaqələri barədə ənənəvi nəsil təsəvvürlərinə uyğun şəkildə yaranmışdı. Semit mədəniyyətinin nümayəndələri olaraq, onlar üçün ittifaq və yaxınlığın başlıca şərti ilk növbədə geneoloji bağlılıq idi.

Ərəblər xəzərləri və türkləri bir-birindən fərqləndirir, ancaq həmişə onların eyni mənşəyə sahib olduqlarını da qeyd edirdilər. Həm də bu zaman istər Xəzər ölkəsi əhalisinə, istərsə də Xəzər ölkəsindən çıxmış insanlara yönəlik həm "*türk*", həm də "*xəzər*" sözündən istifadə olunurdu. Terminlərin bu cür yanaşı işlənməsinin zaman sərhədi ilə ayrılması mümkün olmadığı üçün türkləri xəzərlərdən ayıran həddi təsbit etmək mümkün olmur və beləliklə də, sonuncuların meydana çıxma vaxtı qaranlıq qalır. Bu məsələyə digər mənbələr də xeyli dolaşıqlıq gətirmişdir. Məsələn, gürcü və erməni qaynaqlarının xəzərlər haqqında bəzi məlumatlarını bir çox tədqiqatçılar anaxronizm hesab etməyə meyllidirlər[20].

Lakin ərəb mənbələrinin digərlərindən, o cümlədən etibarlı bizans qaynaqlarından fərqi bundadır ki, onların müəllifləri öz əsərlərini əksər hallarda dövlət siyasətindən asılı olmadan qələmə alır, daha doğrusu, toplumdakı ümumi vəziyyəti daha əhatəli və dəqiq ifadə edirdilər. Yəqin ki, əvvəli çox vaxt hadisə şahidlərinin özlərinə gedib çıxan məlumat ötürənlər zəncirinə istinadları ilə

---

[18] Asadov, F.M. 7. –9. Yuzillarda Güney Hazar Bölgesinde Hükümranlik Süren Türk Suli Hanedanı [Turkish Dynasty of Sulids in South Caspian Land in 7-9 Centuries] // Türkler, - Ankara: Yeni Türkiye Yayımlamaları, - 2002, - s. 311-316.
[19] Асадов, Арабские источники о тюрках в раннее средневековье, с. 95.
[20] Golden, Khazars, p. 1172.

fərqlənən ilkin dövrlərin ərəb müəlliflərinin məlumatlarının etibarlılığı barədə əlavə söhbət açmağa lüzum yoxdur.

Bu gün xəzər adını daşıyan xalq yoxdur, bir vaxtlar onların eyniadlı dənizin sahilində yerləşən qüdrətli dövləti haqqında indi başqa xalqların nümayəndələri öz mədəniyyətləri, tarixi yaddaşları və müasir dünyaya baxışlarına uyğun fikirlər söyləyirlər. Bu baxımdan, öz dünyanın reallıqlarını fərqləndirmək və bunların xəzər tarixinin tədqiqinə təsirini məhdudlaşdırmaq, xüsusilə də bunu birbaşa sübut və möhkəm dəlillərin fərziyyə və ehtimallarla əvəzləndiyi şəraitdə bacarmaq elə də asan məsələ deyil.

Dünya xəzərşünaslığı sahəsində yəqin ki, hazırda ən nüfuzlu mütəxəssis olan, Prinstonda yaşayıb fəaliyyət göstərən professor Piter Qolden bu sahənin müasir vəziyyəti haqqında icmal xarakterli məqaləsinə yazdığı girişdə aşağıdakı sözləri qeyd etmişdir: "*Xəzərlərin öyrənilməsi ilə bağlı təqdim olunan istənilən nailiyyət mütləq şəkildə fərdi nöqteyi-nəzəri və şəxsi maraqları, dilin xüsusiyyətlərini, siyasi savad və mədəniyyəti əks etdirir. Mən o iddiada deyiləm ki, öz fikirlərim başqa cür ola bilər*"[21]. Bu müdrik və dərin mənalı sözlər hər şeydən öncə alimin son dərəcədə təvazökarlığının, yüksək ləyaqət sahibi və özünə hörmət edən şəxs olmasının bir ifadəsi kimi qəbul edilməlidir. Müasir xəzərşünaslıq araşdırmalarının keyfiyyətini bütün xalqların keçmişinə və indisinə hörmətlə yanaşmanı ehtiva edən siyasi mədəniyyət müəyyən etməlidir.

*Xəzərlərin tarixinin Azərbaycan tarixi ilə əlaqəsi.* Azərbaycan dilində "xəzər" sözü ümummilli rəmzlərlə bir sırada durur. Belə ki, ölkənin şərq sahilində yerləşən, onun iqlimindən tutmuş, iqtisadiyyatının, əhalisinin məişət və mədəniyyətinin formalaşmasınadək, yaşamının bütün sahələrinə öz sanbalını qoyan, dünyanın "Kaspi" kimi tanıdığı dəniz "Xəzər" adlanır. Yayda sərin, qışda isə şaxtalı hava gətirən şimal küləyi bizdə "xəzri" kimi tanınır. Hər yanda, yer, rayon, təşkilat, firma, futbol komandası... adlarında

[21] Golden, Khazar Studies: Achievements and Perspectives, p. 12.

“xəzər” sözünə rast gəlmək olar. Buna baxmayaraq, Azərbaycan alimləri indiyədək xəzərlərin tarixinə hərdənbir, həm də xüsusi həvəs olmadan müraciət etmişlər. Ola bilsin ki, bunun səbəbi həm də budur ki, azərbaycanlıların yaddaşında və milli identiklik rəmzlərində xəzər irsinin mövcudluğuna baxmayaraq, onlara qarşı münasibət bir vaxtlar təzəcə təşəkkül tapan milli dövlətçiliyə mane olan xarici qüvvələrə münasibət kimi formalaşmışdır. Sovet tarixşünaslığının uzun illər boyu bunu cənubdan ərəb işğalı, şimaldan isə xəzər qəsbkarlığı kimi təqdim və təbliğ etdiyi də unudulmamalıdır.

Lakin SSRİ dağıldıqdan sonra milli tariximizin prioritetlərinin təqdimatında istər uzun onilliklər boyu müasir Azərbaycan ərazilərinin əhəmiyyətli bir hissəsini öz dövlətinin hüdudları daxilinə alan xəzərlər üçün, istərsə də dövlət dini kimi, Qafqazda mövcudluğu nadir eksperiment olan iudaizm üçün heç də diqqətəlayiq yer ayrılmamışdır[22].

Azərbaycan şərqşünaslıq mediyevistikasının patriarxı akademik Z.M.Bünyadovun əsərləri yəqin ki, bu baxımdan istisna təşkil edir. Z.M.Bünyadaov xəzərlərin Qafqazda uzun müddət qalmaları və hakim mövqedə olmaları barədə məsələ qaldırmışdır. Onun xəzərlərin Cənubi Qafqazda 150 illik hökmranlığı barədə istər sovet, istərsə də post-sovet tarixşünaslığında heç də populyar olmayan fikirləri ilə əsasən iki əsərində – ayrıca məqaləsində və “Azərbaycan VII-IX əsrlərdə” adlı sanballı monoqrafiyasında tanış olmaq olar[23]. Bu işlər 2012-ci ilin mayında Ziya Musa oğlu Bünyadovun anadan olmasının 90 illiyinə həsr edilmiş Beynəlxalq

---

[22] Гусейнова, С. «Двусмысленная» идентичность: ислам в учебниках «Человек и Общество» и «История Азербайджана»: [Электронный ресурс] / EuroKaukAsia: Кавказско-европейское культурно-научное общество «ЕвроКавкАзия», - 24 ноября, 2010 г. URL: http://www.eurokaukasia.de/574/gemeinsame_geschichtbucher/.

[23] З.М.Буниятов, "О длительности пребывания хазар в Албании В VII-VIII вв," *Известия АН Аз.ССР, Серия общественных наук*, no. №1 (1961)., сс. 22-34; Зия Буниятов, *Азербайджан В VII – IX вв.* (Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1965)., сс. 102-116.

Simpoziumda xüsusi araşdırma və təqdimat predmeti olmuşdur[24]. Xəzər xaqanlığının qısa tarixi və xəzərlərin Qafqaz tarixindəki rolu haqqında əsas məlumatlara Azərbaycan şərqşünas alimləri N.Ç.Axundova və R.A. Hüseynzadənin 2012-ci ildə çapdan cıxmış kitabında da rast gəlmək olar.[25]

*Xəzər mənbəşünaslığı məsələləri.* Xəzərşünaslıq araşdırmaları sahəsində xəzərlərin tarixi mənbələri məsələləri mərkəzi əhəmiyyətli yer tutur. Bir toplum olaraq xəzərlərin özlərinin xəzər dilində heç bir yazılı abidəsi qalmamışdır. Xəzər yəhudilərinin qəbul etdikləri iudaizmin müqəddəs kitabəsi və mərasim dili olan ivrit dilində bizə gəlib çatmış dörd məktub, o cümlədən Xəzər hökmdarı İosifin məktubu bu sirli xalqdan qalan yeganə narrativ dəlillərdir. Bizim xəzərlər haqqında bilgilərimizin böyük hissəsi qonşu xalqların nümayəndələri tərəfindən yaradılmış yazılı mənbələrdə saxlanmışdır. Bunlardan ən erkənləri suriya, yaxud suryani deyilən qaynaqlar hesab oluna bilər. Xəzərlər barədə ilk məlumatlar onlara, eləcə də erməni və bizans mənbələrinə aiddir. Xəzərlər haqqında ən erkən məlumat, görünür ki, yunan müəllifi Militenalı Zaxariyanın tarixi əsərinin VI əsrin ikinci yarısına aid olan suryani dilinə tərcüməsində naməlum, yalançı Zaxariya Ritor adı ilə tanınan tərcüməçinin qeydidir. Digər suryani müəllifi İohann Efeslidə xəzərlər barədə məlumat yoxdur, ancaq avarlar barədə qeydlər vardır ki, bəzi tədqiqatçılar türk köçərilərin ikinci dalğasının, o cümlədən xəzərlərin Şərqi Avropaya gəlişini bununla əlaqələndirirlər. Sonrakı dövr suriya müəllifləri Tellmaxrlı Dionis və Suriyalı Mixail xəzərlər barədə məlumat versələr də, onları türklərdən fərqləndirmir, bu ad altında ayrı-ayrı türk xalqları haqqında məlumatları birləşdirirlər. Biz bu müəlliflərin mətnlərindən N.V.Piqulevskaya və R.Ə.Hüseynovun

---

[24] Асадов, Ф.М. Полемика о длительности доминирования хазар на Южном Кавказе в хазароведческих исследованиях второй половины XX века // Средневековый Восток: проблемы историографии и источниковедения, под ред.. Ш.М. Мустафаев, - Баку: Элм, - 2015, - с. 16-35.

[25] Ахундова, Н.Ч. Кавказ и великие тюркские империи / Н.Ч. Ахундова, Р.А. Гусейн-заде. - Баку: EUROCLIO, - 2012. - 289 с.

tərcümələrindən[26] istifadə etməklə bəhrələnmişik. Əbu əl-Fərac Bar Ebrey (İbn əl-İbri) birinci hissəsi siyasi tarixə, ikinci hissəsi isə kilsə tarixinə aid olan böyük "Xronika"nın müəllifidir. Bar Ebrey tarixinin qısa ərəb versiyası da mövcuddur ki, biz bundan da istifadə etmişik[27]. Suriya tarix ədəbiyyatının bu nümunəsinin üstünlüyü onun müəllifinin ərəb tarixçilik ənənələri ilə bağlı olması və ərəb mənbələrindən geniş bəhrələnməsidir[28].

Bizans tarixçiləri VIII əsrin ikinci yarısı – IX birinci yarısının müəllifləri Feofan[29] və Nikifora qədər[30] xəzərlər barədə məlumat vermir. Bizans mənbələrində xəzərlər barədə məlumatlar elə də çox deyil, ancaq bunlar özündə Bizans dövləti siyasətçilərinin xəzərlərlə qarşılıqlı əlaqəsinin konkret təcrübəsini ehtiva edir və heç şübhəsiz ki, onlar haqqında mötəbər məlumatlar hesab olunurlar. X əsr tarixçisi və dövlət xadimi Konstantin Porfirogenitusun[31] Xəzər

---

[26] Пигулевская, Н.В. Сирийский источник VI в. о народах Кавказа // Вестник древней истории, - 1939, no. 1, с. 107-115; Сирийские источники по истории народов СССР / Н.В. Пигулевская. – Москва, Ленинград: Издательство Академии Наук СССР, - 1941. – 170 с.; Сирийская средневековая историография. Исследования и переводы / Н.В. Пигулевская. - Санкт-Петербург: "ДБ", - 2000. - 760 с.; Гусейнов, Р.А. Сирийские источники XII-XIII вв. об Азербайджане / Р.А. Гусейнов. - Баку: Элм, - 1960. - 181 с.; Сирийские источники по истории Закавказья X-XIV вв. // Historical-Philological Journal, - 1974, no. 2, - с. 47-54.

[27] Ibn al-Ibri, Ghrighoriyus al-Malati. Tarikh Mukhtasar Al-Duwal / Ghrighoriyus Ibn al-Ibri al-Malati. - Beirut: al-Matbaa al-kathulikiyya, - 1958. - 346 s.

[28] Новосельцев, Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа, с. 32.

[29] Византиец, Феофан. Выписки из "Истории" Феофана / Византийские историки: Дексипп, Эвнапий, Олимпиодор, Малх, Петр Патриций, Менандр, Кандид, Ноннос и Феофан Византиец, переведенные с греческого Спиридоном Дестунисом, - Санкт-Петербург: - 1860, - с. 492-495.

[30] Чичуров, И.С. Византийские исторические сочинения. "Хронография" Феофана, "Бревиарий" Никифора / И.С. Чичуров. - Москва: Наука, - 1980. - 216 с.

[31] Багрянородный, Константин. Об управлении империей (De Administrando Imperio) / Константин Багрянородный, перевод под ред. Г.Г. Литаврина и А.П. Новосельцева. - Москва: Наука, - 1991. - 496 с.

dövlətinin təşəkkülü və süqutu dönəmlərini əks etdirən “İmperiyanın idarə edilməsi haqqında” adlı əsəri xüsusi əhəmiyyət kəsb edir.

Erkən Orta əsrlərə aid erməni tarixi mənbələri də xəzərlər haqqında çoxlu məlumatlar ehtiva edir. Xəzərlər barədə qeydlərə ilkin dövrlərə aid erməni tarixçilərindən yalnız Movses Xorenlidə rast gəlirik[32]. Xorenlinin məlumatları xəzər mənbəşünaslığının ən çətin məsələlərindən biri hesab edilir. Belə ki, Xorenlilin qeydi xəzərlərin adının keçdiyi dövrlə bağlı digər yazılı mənbələrdəki məlumatlarla ziddiyyət təşkil edir, eləcə də II-V əsrlərdə Qafqaz və Şimali Xəzəryanı bölgələrdəki etno-siyasi durum haqqında müasir elmin təsəvvürləri ilə uzlaşmır. Xəzərlər haqqında məlumatlar VII əsrin başlanğıcında Anani Şirakatsi tərəfindən tərtib edildiyi güman olunan erməni coğrafi əsərində[33] də mövcuddur. Xəzərlər barədə daha dolğun məlumat verən erməni mənbəyi isə Gevondun “Xəlifələr tarixi” adlı əsəridir[34].

Xəzər mənbəşünaslığında alban tarixçisi Moisey Kalankatuklunun “Ağvan tarixi” adlı əsəri xüsusi yer tutur[35]. Ancaq bu dolğun məzmunlu kitabda xəzərlər haqqında verilmiş məlumatların tarixi məqamları və detalları onların dəqiqliyinin və

---

[32] Хоренаци, Мовсес . История Армении / Мовсес Хоренаци, перев. Г. Саркисян. - Ереван: Айастан, - 1990. - 291 с.

[33] Патканов, К.П. Армянская география VII в. по Р.Х. (приписываемая Моисею Хоренскому): [Электронный ресурс] / К.П. Патканов. - Санкт-Петербург: - 1877. URL: ъhttp://www.vehi.net/istoriya/armenia/geographiya/04.html.; Из нового списка Географии, приписываемоq Моисею Хоренскому: [Электронный ресурс] // Журнал Министерства Народного Просвещения (ЖМНП), - 1883, № 226. URL: http://www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/VII/Arm_Geogr/text1.phtml?id=2184.

[34] Гевонд. История халифов вардапета Гевонда, писателя VIII века / Гевонд, перев. К. Патканьян. - СПб.: - 1862. - 191 с.

[35] Каганкатваци, Моисей. История Агван / Моисей Каганкаваци, перев. с армянского К.П. Патканов. - Санкт-Петербург: Императорская Академия Наук, - 1861. – 376 с.; Каланкатуаци, Мовсес. История страны Алуанк / Мовсес Каланкатуаци, перев. Ш.В.Смбатян. - Ереван: Матенадаран, - 1984. - 258 с.

xronoloji ardıcıllığının düzgün müəyyən olunması üçün olduqca diqqətli araşdırma tələb edir.

Haqqında bəhs olunan anaxronizm və xronologiya problemləri Orta əsrlərin gürcü mənbələrinə də aiddir. Gürcü tarixi əsərləri toplusu "Kartlis tsxovreba"nın ("Gürcülərin həyatı") erkən üç kitabında da xəzərlərdən bəhs olunur. Lakin bunlardan yalnız XI əsrdə naməlum müəllif tərəfindən yaradılmış "Matiane Kartlisa" ("Gürcü diyarın xronikası") adlı əsərdə xəzərlərlə bilavasitə əlaqəsi olan məlumatları daha real hesab etmək olar[36].

Xəzər tarixi üzrə mənbəşünaslıqda ərəb yazılı abidələri xüsusi yer tutur. Onların ən vacib üstünlüyü özünü janr müxtəlifliyində göstərir. Belə ki, xəzərlər haqqında məlumatlara yalnız onların tarixi kitablarında deyil, hətta Orta əsrlərə aid coğrafi əsərlərində, poeziya və nəsr nümunələrində, bio-biblioqrafik ədəbiyyatlarında da rast gəlmək olur. Tədqiqat işində bu əsərlərdən geniş şəkildə istifadə olunmuşdur. Kifayət qədər çoxlu sayda ərəb mənbələrindən istifadə etdiyimizə görə, bütün bu əsərlərə istinadlar avtoreferat üçün ayrılmış yerin böyük ölçüdə tutmuş olacaqdır. Ona görə də konkret əsərlərə istinadlar və onların məzmununa aid süjet parçaları tədqiqatın nəticələrinin təqdimatı boyunca verilmişdir.

Xəzərlərin mənşəyi və erkən tarixi barədə diskussiyalara Tan sülaləsinin tarixi üzrə çin mənbələrinin məlumatları, eləcə də VIII əsrin ortalarına aid uyğur daşüstü yazılı abidələrinin məlumatları da cəlb olunmuşdur. Məşhur rus türkoloqu S.Q.Klyaştornı Uyğur xaqanlığına aid daşüstü yazılı abidələrin bəzi məlumatları ilə xəzərlər arasında əlaqəni üzə çıxarmışdır. Bu məlumatlar xəzərlərin mənşəyi ilə bağlı sual üçün böyük əhəmiyyət kəsb edir[37]. Dissertasiyada yazılı

---

[36] Летопись Картли (Матиане Картлиса): [Электронный ресурс] / Перевод, введение и примечания Г.В. Цулая. - Тбилиси: Мецниереба, - 1982. – 69 с. URL: http://dspace.nplg.gov.ge/bitstream/1234/3160/1/Letopis_kartli.pdf.; Картлис Цховреба (История Грузии) / Под ред. Р. Метревели. - Тбилиси: Издательство "Артануджи", - 2008. - 455 с.

[37] Кляшторный, С.Г. Рунические памятники Уйгурского каганата и история евразийских степей / С.Г. Кляшторный. – СПб.: Петербургское Востоковедение, - 2010. - с. 175.

abidələrdən başqa xəzər arxeologiyasının dərc olunmuş bir sıra məlumatlarından, xüsusilə də Azərbaycan ərazisində üzə çıxarılmış və xəzərlərə aid olduğu güman edilən arxeoloji tapıntı və numizmatik materiallardan da istifadə olunmuşdur. Burada xəzərşünaslıq problemlərinə və xəzərlərin tarixinin öyrənilməsi metodologiyasına aidiyyatı olan ən yeni genetik araşdırmaların nəticələrinin cəlb olunması və uçotunu ayrıca qeyd etmək lazım gəlir.

**Tədqiqatın obyekti və predmeti.** VI-X-cu əsrdə Cənubi Qafqaz regionunda siyasi və iqtisadi mühitin konfiqurasiyasına təsir edən xarici amillərlə xəzərlərin qarşılıqlı əlaqəsini öyrənmək üçün yazılı abidələrin xəbərləri və digər köməkçi elmi fənlərin təqdim etdiyi məlumatları tədqiqatın obyekti müəyyən edilə bilər. Xəzərlərlə qarşılıqlı əlaqədə olan və Azərbaycandakı proseslərə həlledici təsir göstərən xarici amillər kimi, son Sasani dönəmi İranını, eləcə də Bizans, Ərəb xilafəti və ərəb mənbələrində adı keçən rusları və eləcə də Xəzər konfederasiyasına daxil olan, lakin bəzi hadisələrdə müstəqil amil kimi özlərini göstərən tayfaları aid etmək olar.

Xəzərlərin və Xəzər dövlətinin regionun siyasi təkamülündə rolu, eləcə də üç əsrlik bu fenomenin – qüdrətli Xəzər dövlətinin Azərbaycandakı etnosiyasi, dini və iqtisadi proseslərə təsiri tədqiqat işinin predmetini təşkil edir. Orta əsrlər tarixçiliyi və müasir milli tarixşünaslıqlarda tarixi narrativlərin formalaşması qanunauyğunluğu təsiri ilə müəyyənləşmiş xüsusiyyətləri olan xəzərşünaslıq araşdırmalarının yerinə yetirilmə şərtləri məsələləri isə tədqiqatın xüsusi predmeti sayıla bilər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini xəzərşünaslıq araşdırmalarının aktuallığından və xəzər tarixinin əsas məsələlərinin dünya tarixi kontekstində həll olunmamasından çıxış edərək müəyyənləşdirmək lazım gəlmişdir. Bu baxımdan, xəzərlərin Mərkəzi Avrasiyadakı konkret bir ölkə – məhz Azərbaycanla münasibətlərinə aid olan tarixlərinin müəyyən aspektlərinin öyrənilməsi Xəzər dövlətinin qonşu ölkələrin həmsərhəd əraziləri və əhalisi ilə əlaqələrini ayırd etməkdən ötrü mötəbər faktik materialların təqdimatı, və konkret təcrübə nəticələrini töhfə edə bilər. Beləliklə, müdafiəyə təqdim edilən tədqiqatın əsas məqsədini

Xəzər dövlətinin və xəzərlərin müasir Azərbaycan ərazisi və onun sakinləri arasında qarşılıqlı əlaqələrin Xəzər dövlətinin erkən Orta əsrlər Avrasiyasının tarixində əhəmiyyətinin konkret təcəssümü olaraq öyrənilməsi kimi müəyyən etmək olar.

X əsrdən sonra türk xəzər xalqı Avrasiya tarixindən müəmmalı şəkildə yox oldu. Amma onun tarixi, əmin olduğumuz kimi, indi nəinki müxtəlif xalqların çağdaş tədqiqatçılarının xüsusi marağına səbəb olur, həm də Mərkəzi Avrasiya regionundan kənarda da müasir siyasi assosiasiyalara təkan verir, iftira və böhtanların predmetinə çevrilir. Bu, o anlama gəlir ki, xəzər tarixi ilə bağlı hər bir böyük araşdırmanı Avrasiyanın müasir xalqlarının milli tarixşünaslıqlarının mürəkkəb kəsişmə sistemində yerləşdirmək lazım gəlir. Eyni zamanda xəzərlərin dünya dinlərinin yayılması və sivilizasiyalararası sərhədlərin müəyyənləşməsindəki xüsusi rolunu nəzərə almaq da qaçınılmaz olur. Xəzərşünaslığın bu sonuncu aspekti onun rolunun ümumdünya tarixi əhəmiyyətini müəyyən edir. Beləliklə, Azərbaycanın və Azərbaycan xalqının tarixi üçün xəzərşünaslıq araşdırmalarının konturları da həmçinin iki müstəvidə müəyyən olunur: ikitərəfli əlaqələr sahəsində və dünya tarixi kontekstində.

Xəzər tarixşünaslığının geniş mənada əhəmiyyəti həmçinin ondan ibarətdir ki, Avrasiya materikinin yazılı mənbələrinin praktik olaraq bütün əsas qrupları onlar barədə məlumatlar saxlamışdır. Lakin bir sıra mənbələrdəki çoxsaylı açar dəlillər digər xalqların mənbələrindəki məlumatlarla ziddiyyət təşkil edir. Xəzər tarixi araşdırıcılarının ən tanınmış nümayəndələrindən biri, ukrayna mənşəli amerikalı alim, professor Omelyan Pritsak bununla bağlı yazır: "*Xəzər problemi ən mürəkkəb problemlərdən biridir, hər şeydən öncə ona görə ki, müxtəlif dillərdə yazılmış mənbələr olduqca kasaddır və əksər hallarda çətin ki, həqiqətə tam uyğun gəlir*".[38] Elə bu da xəzər tarixinin mübahisəli məsələlərinin aydınlaşdırılması üçün çətin aşıla bilən maneə təşkil edir. Deməli, xəzərşünaslıq

[38] Golden, Khazar Studies: Achievements and Perspectives, p. 10; Голден, Достижения и перспективы хазарских исследований, с. 29.

məsələlərinin hərtərəfli və dərindən tədqiqi müxtəlif dilli ilkin qaynaqların mötəbərliyinin müəyyən olunması üzrə dəqiq yanaşma tələb edir.

Beləliklə, tədqiqatın vəzifələri belə müəyyən olunmuşdur:

- müasir Azərbaycan ərazisində xəzərlərin yaşamı və xəzər maddi mədəniyyətinin elementləri haqqında müxtəlif dilli yazılı mənbələrdəki məlumatların və arxeoloji dəlillərin axtarılıb toplanması;

- yazılı mənbələrdə xəzərlər haqqında saxlanmış məlumatların səhihliyinin müəyyən edilməsi, eləcə də birmənalı şərhi xəzərlərin Qafqazdakı tarixinin başlanmasının dəqiq zamanı və şəraiti ilə bağlı araşdırmaları yanlış səmtə yönəldə biləcək tarixi mətnlərdəki mümkün anaxronizmlərin üzə çıxarılması;

- xəzərlərin tarixinin öyrənilməsinin müasir siyasətin və beynəlxalq münasibətlərin vacib problemləri ilə əlaqəli olduğunu nəzərə alaraq, müxtəlif ölkələrdə müasir xəzərşünaslıq tədqiqatlarına təsir göstərən ictimai-siyasi vəziyyətin aydınlaşdırılması;

- Qafqaz köçərilərinin, xüsusən də xəzərlərin ərəb-xəzər müharibələrindən sonra Ərəb xilafəti hüdudları daxilndə qalmış Qafqaz Albaniyasının əhalisi ilə qarşılıqlı əlaqələrinin xarakter və xüsusiyyətlərinin aydınlaşdırılması;

- ərəb-xəzər müharibələrinin nəticələrinin və onların Cənubi Qafqazın müsəlman vilayətlərinin əhalisinin taleyi üçün əhəmiyyətinin qiymətləndirilməsi;

- müsəlman dünyası ilə Qafqaz sıra dağlarından şimaldakı ölkələr, eləcə də Mərkəzi Asiya və Çinlə uzaq beynəlxalq ticarətin təşkilində ərəb-xəzər əməkdaşlığının rolunun müəyyənləşdirilməsi;

- - Cənubi Qafqazın, daha doğrusu müasir Şimali və Cənubi Azərbaycan ərazilərindəki müsəlman vilayətlərinin iqtisadi inkişafı üçün ərəb və xəzərlər arasında ticarət əlaqələrinin əhəmiyyətinin müəyyənləşdirilməsi;

- Xəzər dövlətində dini vəziyyətin xarakteristikası, Cənubi Qafqazda, xüsusən də müasir Azərbaycan ərazisində islamın və digər dünya dinlərinin yayılması tarixində xəzərlərin rolunun tədqiqi;

- Xəzər xaqanlığının Azərbaycan xalqının erkən orta əsrlər tarixi üçün əhəmiyyətinin və Azərbaycan milli tarixinin xəzərlərin Qafqazdakı tarixi ilə əlaqələrinin qiymətləndirilməsi.

**Tədqiqatın metodologiyası.** Dissertasiya işi özündə mənbəşünaslıq analizi və tarixşünaslıq tədqiqatları metodlarını uzlaşdırır. Həm də bu zaman belə bir müddəa əsas götürülmüşdür ki, xəzər tarixinin fakt və reallıqları xəzərşünaslığın öncəki inkişafı ilə kifayət qədər mübahisəsiz şəkildə müəyyən olunmadığına görə, onlar haqqında ziddiyyətli məlumatların səhihliyinin müəyyən edilməsi istər-istəməz tədqiqat işinin bir hissəsini təşkil etməlidir. Başqa sözlə, faktların mənbələrin analizi yolu ilə müəyyən olunması hadisə və ictimai proseslərin tarixi rekonstruksiyasının vacib hissəsinə çevrilmişdir. Mənbəşünaslıq analizlərinin tarixi sıralanma və tarixin yazılması ilə qırılmaz əlaqəsi prinsipi Rusiyada tarix elminin metodoloji əsaslarını qoyanlardan biri – A.S. Lappo-Danilevski (1863-1919) tərəfindən formalaşdırılmışdır [39]. Növbəti vacib metodoloji əsas, banisi müasir niderland tarixçisi və filosofu Frank Ankersmit hesab edilən tarixi narrativ nəzəriyyəsinin müddəaları olmuşdur. Bu nəzəriyyənin tərəfdarlarının təsəvvüründə mənbə iki əsas funksional xarakteristikası olan obyekt kimi mövcuddur. Birincisi, o, yazılı mənbənin yarandığı dövrün tarixi reallığının təqdimatıdır, ikincisi isə, narrativ ilkin qaynaq özünün yarandığı dövrdən öncəki hadisələrin əksi funksiyasında yalnız keçmişin metaforik müəllif traktovkasıdır. Bu baxımdan da o müasir tarixçinin işindən çox da fərqlənmir[40]. Xəzərlər və xəzər dövləti haqqında mənbələrin analizində göstərilən metodoloji üsulların ardıcıl təsviri və konkret istifadəsi üsulları tədqiqat işinin birinci fəslində öz əksini tapmışdır.

**Dissertasiya işinin müdafiəyə çıxarılan əsas nəticələri:**

---

[39] Лаппо-Данилевский, А.С. Методология истории / А.С. Лаппо-Данилевский. - Москва: Издательсткий дом "Территория будущего", - 2006. - 624 с.

[40] Анкерсмит, Ф. Нарративная логика: семантический анализ языка историков / Ф. Анкерсмит, перев. с англ. Андрей Олейников, Оксана Гавришина. - Москва: ИДЕЯ-ПРЕСС, - 2003. - 360 с.

1. Müəllif hesab edir ki, erməni, alban, gürcü və bəzi ərəb-fars müəlliflərin xəzərlər barədə məlumatlarındakı anaxronizmlər probleminin həlli üçün dissertasiya işində kifayət qədər dəlil təqdim olunmuşdur. Movses Xorenatsi və “Kartlis tsxovreba”nın (“*Gürcülərin həyatı*”) xəzərlər haqqında VI əsrin ortasına qədər olan dövrə aid məlumatlarını, yəni suryani mənbələrində xəzərlərlə bağlı xəbərlərin meydana çıxdığı vaxtadək olan məlumatlarını regionda xəzərlərin sələflərinə aid anaxronizmlər hesab etmək lazımdır.

2. “Ağvan tarixi”nin müəllifi olan Alban tarixçisini Qafqaz köçərilərinə münasibətdə Orta əsrlər erməni tarixşünaslığı ilə yaxınlaşdıran ümumi müddəalarla yanaşı, Alban kilsəsinin qonşu qeyri-xristian xalqların – hun və xəzərlərin dini mariflənməsi sahəsində xüsusi missiyasını aydın şəkildə dərk etməsi fərqləndirir. Bu hal Qafqaz Albaniyasında və Qafqaz sıra dağlarından şimalda uzunmüddətli qarşılıqlı siyasi əlaqələrin və qarşılıqlı etnik-mədəni proseslərin qanunauyğun nəticəsi olmuş, ərəblərin və islamın gəlməsi ilə, xüsusən də xəzərlər və ərəblər arasındakı mürəkkəb əlaqələrin sülh fazaları dönəmində davam etmiş, daha da güclənmişdir.

3. Xəzər dövlətinin süqutundan keçən bir əsr yarımdan tez olmayaq rus salnamələrində xəzərlər haqqında qeydə alınmış məlumatları salnaməçilərin Ruriklər sülaləsinin Kiyev və Rusdakı hakimiyyətinin legitimliyini təmin etmək səylərinin təsiri altında formalaşmış məlumatlar hesab etmək olar.

4. Ərəb mənbələrinin xəzərlər barədə məlumatlarının mötəbərliyi xəzərlərlə təmasın bilavasitə şahidlərinin qeydə alınmış təəssüratları ilə təmin olunmuşdur. Lakin Əhməd ibn Fadlanın 921-922-ci illərdəki səyahətinədək çətin ki, onlar Xəzər dövləti haqqında paytaxt İtilin hüdudlarından uzaq kənarla bağlı hansısa əhəmiyyətli təsəvvürlərə malik ola bilərdilər.

5. Xəzər elitasının iudaizmi qəbul etməsi, Xəzər dövlətində dini siyasət haqqında məlumatlar və xəzərlərin Şərqi Avropa yəhudi icmasının formalaşması tarixi ilə əlaqəsi barədə irəli sürülən ideyalar xəzərşünaslıq araşdırmaları ətrafında müasir dünyanın siyasi problemləri ilə bağlılıq atmosferi yaratdı. Bu atmosferin alimlərin mövqeyinə və ayrı-ayrı ölkələrin ictimai fikrinə təsiri xəzərşünaslıq

tədqiqatlarını aktuallaşdırır və onların siyasi korrektliyinə həssaslığı yüksəldir. Başqa bir tərəfdən, xəzər mövzusuna qarşı həssaslıq tarixi keçmişi Xəzər xaqanlığı ilə bağlı olan ölkələrin milli tarixşünaslığına özünəməxsus təsiri olan ictimai fon yaradır.

6. Azərbaycan tarixində xəzərlərin rolu nə dünya tarixşünaslığında, nə də milli tarixşünaslıqda yetərincə qiymətini almamışdır. Xəzərlər haqqında Cənubi Qafqazın sasani dövründən sonrakı və ərəblər dönəmi tarixinə aid məlumatların ardıcıl və dürüst analizi Azərbaycan ərazilərinin bir hissəsinin uzun müddət Xəzər dövlətinin hüdudları daxilində olduğunu, digər tərəfdən isə bu torpaqların sakinlərinin ərəb istilası ərəfəsində Qafqazda Xəzər konfederasiyasının formalaşmasının iştirakçıları ola biləcəyini deməyə əsas verir. Azərbaycanın şimal sərhədlərində üç əsr boyunca qüdrətli türk dövlətinin mövcudluğu ölkənin türk əhalisinin sayının artmasında əhəmiyyətli rol oynamışdır.

7. Azərbaycan ərazisində ərəb-xəzər qarşıdurmasının əsas nəticəsi iki dövlət arasında Dərbənddən qərbə doğru quru sərhədlərinin sabitləşməsi, başlıcası da İpək yolunda ərəb-xəzər tərəfdaşlığının yaranıb möhkəmlənməsi oldu.

8. Ərəblər və xəzərlər arasında uzaq beynəlxalq ticarət sahəsində əməkdaşlıq təqribən bütöv bir yüzillik boyunca mal və texnologiyaların Mərkəzi Avrasiyadan Yaxın Şərqə aparan magistral daşınma marşrutlarını Cənubi və Şimali Azərbaycan əraziləri, həmçinin su yolu ilə Xəzər dənizi üzərində keçməklə istiqamətləndirmişdir.

9. Beynəlxalq ticarət sahəsində əlverişli şəraitin yaranması tarixi Azərbaycan ərazisində daxili bazarın və uzaq karvan ticarəti infrastrukturunun formalaşmasına, yerli kənd təssərüfatı və sənətkarlıq sahələrinin, elcə də şəhərlərin inkişafına imkan yaratmışdır.

10. Xəzər cəmiyyətində mövcud olan liberal dini mühit dünya dinlərinin, o cümlədən yeni təşəkkül tapan islam dininin regionda yayılması üçün münbit şərait yaratmışdır. Ərəb hakimiyyəti müsəlman xəzərlərin Azərbaycan ərazilərinə köçüb məskunlaşmasını

təşviq edir, bu da öz növbəsində ölkə əhalisinin türkləşməsi və müsəlmanlaşması prosesinin uzlaşmasına yaxşı imkan yaradırdı.

11. Ərəblərin və xəzərlərin İpək Yolunda əməkdaşlıq dövrü Azərbaycan əhalisinin böyük hissəsinin iqtisadi fəallığına, mobilliyinə, iqtisadi və demoqrafik konsolidasiyasına imkan yaradırdı. Ona görə də bu tarixi mərhələni Azərbaycan xalqının tarixi məkanının əsas iqtisadi və demoqrafik cizgilərinin formalaşdığı həlledici dövr kimi qiymətləndirmək olar. Regionda ərəb-xəzər əməkdaşlığından və Xəzər xaqanlığının süqutundan sonra xilafətdə başlayan mərkəzdənqaçma tendensiyalarının yüksəlişi, eləcə də Cənubi Qafqazda və Mərkəzi Asiyada yerli sülalələrin baş qaldırması, təəssüf ki, ticarət yollarında ərəb-xəzər əməkdaşlığı dönəmində olduğu kimi, Azərbaycanda təşəkkül tapmış pozitiv tendensiyaların möhkəmlənməsi və inkişafına xidmət etmədi.

12. İpək Yolunda ərəb-xəzər əməkdaşlığının başa çatması X əsrin birinci yarısında Bizansın müvəffəqiyyətli xarici siyasəti ilə bağlı idi. Kiyev Rus dövlətinin yeni hakimiyyətini öz orbitinə cəlb etmiş Bizans (882-i ildən sonra) əvvəllər Avrasiya ticarət yollarının Şərqi-Avropa və Qafqaz sektorunda hərbi-siyasi vəziyyəti tamamilə öz nəzarətində saxlayan Xəzər dövlətinin əsaslarını sarsıtma istiqamətində uğurlu fəaliyyət göstərmişdi. Başqa tərəfdən isə, Bizansın vassalı olan Gürcüstan knyazlıqları Cənub-qərbi Azərbaycanda ticarət yollarına təhlükə törətməyə başlamışdı.

13. Gücdən düşmüş Xəzər dövləti daha Ərəb xilafəti üçün qüdrətli bir tərəfdaş deyildi, müsəlman dövlətinin X əsrdə başlamış siyasi dağılma prosesi isə onun Bizans siyasətinə qarşı dirənmə imkanlarını məhdudlaşdırmışdı. Bununla birlikdə, Mərkəzi Asiyada Samanilərin maraqları onların səylərini Xarəzmdən Volqa-Baltik yolu ilə Avropaya və cənuba – “varyaqlardan yunanlara” doğru ticarət marşrutlarını aktivləşdirməyə istiqamətləndirirdi.

14. Xəzərlərin və Xəzər xaqanlığının tarixini Azərbaycan milli tarixinin bir hissəsi kimi nəzərdən keçirmək, eləcə də Azərbaycan ərazisində baş verən bu tarixi prosesi türkdilli köçərilərin burada məskunlaşması və müsəlmanlaşması tendensiyasının reallaşması hesab etmək olar. Xəzər xaqanlığının mövcud olduğu üç əsr boyunca

Azərbaycanın və Xəzər dövlətinin taleləri bir-birinə bağlı olmuş, Xəzər dövlətinin süqutu isə ölkəmizin təzəcə başlamış olan demoqrafik və iqtisadi konsolidasiyasını ləngitmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Xəzərşünaslığın mənbəşünaslıq probleminə ayrıca analtik fəsil şəkilində müraciət edilməsi tədqiqat işinin vacib və innovativ komponenti olmuşdur ki, burada xəzərşünaslıq tədqiqatlarının böyük problemi – xəzərlər haqqında kifayət qədər ziddiyyətli məlumatların mötəbərlik dərəcəsinin müəyyən edilməsi, eləcə də alban, erməni, gürcü və ərəb-fars tarixi qaynaqlarında ehtimal olunan anaxronizm məsələləri nəzərdən keçirilmişdir.

Bəlkə də xəzərşünaslıq araşdırmaları sahəsində ilk dəfə milli tarixşünaslığın inkişaf qanunauyğunluqları və şərtləri ilə bədii ədəbiyyatda, eləcə də bir vaxtlar xəzər dünyası (Pax Chasarica) sərhədlərin işində və təsiri altında olmuş çağdaş ölkələrin ictimai fikrində xəzər mövzusuna yönəlik özünü göstərən fərqli refleksiyalar arasında obyektiv əlaqənin müəyyən olunmasına təşəbbüs edilmişdir. Məsələlərin nəzərdən keçirilməsinin bu aspekti xəzər tarixinin elmi problemlərini müasir siyasi proseslərin və ictimai fikrin təbəddülatları işığında təqdim etməyə imkan vermişdir. Tədqiqatda həmçinin etnik tarixin öyrənilməsinin müasir metodologiyaları, o cümlədən xəzərlərlə etnik əlaqəsi olduğu güman edilən xalqların genetikası üzrə araşdırmalar xarakterizə olunmuşdur.

Azərbaycan və xəzər tarixşünaslığında ilk dəfə olaraq xəzərlərin Azərbaycan ərazisində yaşayan əhali və burada mövcud olmuş dövlətlərlə əlaqələri tarixinin VII - X əsrlər Mərkəzi Avrasiyanın ümumi tarixi prizmasından, həm də Xəzər dövləti tarixi problemi işığında araşdırılmasına təşəbbüs göstərilmişdir. Bu, xəzərlərin Azərbaycanın milli tarixindəki və Azərbaycan milli identikliyinin formalaşmasındakı rolunun yenidən qiymətləndirilməsini təklif etməyə imkan yaratmışdır.

Xəzərlərin Azərbaycan tarixində rolu haqqında məlumatların araşdırılması zamanı yazılı mənbələrin və arxeoloji tapıntıların materialları yanaşı nəzərə alınmış, bir sıra artefaktların

qiymətləndirilməsinə yenidən baxılmış, yazılı mənbələrin məlumatları yeni baxışla interpretasiya olunmuşdur.

Azərbaycan xalqının yaşadığı bütün müasir məkanda demoqrafik və iqtisadi inkişaf üçün İpək Yolu tarixinin ərəb-xəzər tərəfdaşlığı dövrünün əhəmiyyəti yenidən nəzərdən keçirilmişdir.

Dissertasiyanın xəzərşünaslığın və Azərbaycan tarixşünaslığının böyük məsələlərinə yönəlik yuxarıda təqdim olunan əsas nəticələri ilə yanaşı, mövzusuya aid mənbələrin araşdırılması zamanı Cənubi Qafqaz tarixşünaslığı və mənbəşünaslığının aşağıdakı məsələlərinə aid yeni nöqteyi-nəzər və fikirlər əsaslandırılmışdır:

- B.e.-ın V əsrində erməni tarixşünaslığının yaranmasınadək keçən dövrə aid xəzərlər barədə Moisey Xorenlinin məlumatlarının öncəki türk xalqları haqqında xəbərlərin təkrarlaması xarakteri daşıdığı arqumentləşdirilmişdir;
- Alban tarixçisi Moisey Kalankatuklunun Albaniya və Ermənistanda xristianlığın qəbulu barədə məlumatları incələnmiş, “Alban tarixi” müəllifinin məntiq və mövqeyini əks etdirən bu prosesdəki hadisələrin yeni xronologiyası əsaslandırılmışdır;
- “Alban tarixi”nin mətnində elə məlumatlar tapılmış və tutarlı izahı verilmişdir ki, onların şərhi, alban xalqı və onun kilsəsi tarixi ilə bağlı fərdi müəllif konsepsiyasının olması və əsərin Alban kilsəsi və dövlətinin rəsmi salnaməsi statusu barədə fikirlərin lehinə yeni arqumentlər təqdim etmişdir;
- Alban knyazı Cavanşirin xəzərlərə yönəlik siyasətinin və onun ölümündən sonra baş verən hadisələrin yeni traktovkası təklif edilmişdir ki, Alban dövlətinin xəzərlərlə müttəfiqlik və dövlətin regiondakı qarşıdurmada ortaqlıq siyasəti aparmasına dəlalət edir;
- Qafqazda və Mərkəzi Asiyada ərəblərin türklərlə mübarizəsinin həlledici mərhələsinə aid hadisələrin, eləcə də Məşriqdə (Şərqdə) ərəb ekspansiyasının ümumi strategiyasının və türk hökmdarlar tərəfindən islamın qəbulu barədə ilkin məlumatların məzmun və əhəmiyyətinin dəqiqləşdirilməsinə imkan verən hadisələrin sinxronlaşdırılması işi yerinə yetirilmişdir;

- Dərbənd rayonundakı Sul və Sul qalası toponimlərinin mənşəyinə aid yeni izah təklif olunmuş, onun Cənubi Xəzrətrafındakı türk xalqı və Sul adlı yerlə bağlılığı müəyyən edilmişdir;

- Şimal-qərbi Azərbaycanın Qəbələ bölgəsində əldə olunmuş və Xəzər xaqanlığının saltovo-mayatsk mədəniyyəti ilə bağlılığı güman edilən arxeoloji tapıntıların yeni interpretasiyası verilmişdir;

- X əsr ərəb müəllifi İbn Xordadbehin coğrafi əsərində ruslar haqqında qeydə alınmış parçanın *ər-raxdaniyyə* yəhudi tacirlərinin ticarət yolları barədə məlumatlarla vəhdət təşkil etməsi isbat edilmiş, və müəllifin bu məlumatlarının transxəzər dəniz marşrutların Avrasiya quru ticarət yolları ilə ümumilikdə vahid yol şəbəkəsi mövcudluğuna dəlalət etməsi əsaslandırılmışdır;

- Təbii boya olan marenanın Şimali Azərbaycan ərazisində istehsalı və onun Azərbaycandan Xəzər dənizini keçməklə Hindistana nəqli barədə ərəb müəllifi əl-İdrisinin məlumatının mətninin informasiya qaynağı araşdırılmış və onun formalaşmasının mümkün yolları izah edilmişdir;

- Bərdədən Dərbəndə ticarət yolu üzərindəki əl-Abxaz toponiminin etimologiyasının və lokallaşdırılmasının yeni variantı təklif edilmişdir;

- X əsrin ortalarında Bərdədə iqtisadi tənəzzülün səbəbləri barədə ərəb coğrafiyaçısı İbn Havqəlin qeyri-müəyyən məlumatı incələnmiş və interpretasiya olunmuşdur;

- Ərəb mənbələrinin öyrənilən dövrə aid bir sıra məlumatları, o cümlədən ərəb mənbələrində Xəzər (Kaspi) dənizinin adlandırılması zamanı istifadə olunmuş fərqli terminlərlə bağlı məlumatlar, beynəlxalq transxəzər ticarətdə neftin və Bakı limanının əhəmiyyəti, eləcə də rusların Xəzər dənizində peyda olmalarının tarixi barədə İbn Xordadbeh və əl-Məsudinin ziddiyyətli məlumatları və s. dəqiqləşdirilmişdir.

**İşin elmi-praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri bütün Orta əsrlər dövrü boyunca Cənubi Qafqazın, o cümlədən Azərbaycanın etno-siyasi və mədəni-təsərrüfat xarakteristikasının formalaşmasında xəzərlərin və Xəzər xaqanlığının rolu barədə milli tarixşünaslıqda qəbul olunmuş bir sıra müddəaların təzədən nəzərdən

keçirilməsi və yenilənməsində etibarlı qaynaqlardan biri ola bilər. Dissertasiyanın müddəalarının müvəffəqiyyətlə müdafiə edilməsi halında onlar orta məktəblərdə və ali təhsil ocaqlarında Azərbaycan tarixi kurslarının məzmununun müvafiq sahələrinin əhəmiyyətli dərəcədə yeniləməsinə gətirib çıxara bilər. Xəzərlərin Azərbaycan tarixində rolu barədə mötəbər mənbələrin əhatəli məlumatları ilə lazımı səviyyədə sənədləşdirilmiş tədqiqat işi Avrasiya regionunun tarixində və xəzərlərlə həmsərhəd olan bir sıra Avrasiya xalqlarının dövlətçilik ənənələrinin inkişafında Xəzər xaqanlığının rolunun araşdırılmasında, eləcə də xəzərlərin Avrasiyadakı dövlətçilik ənənələrinin ümumdünya tarixi əhəmiyyəti barədə təsəvvürlərin dəqiqləşdirilməsində müqayisə materialı kimi istifadə oluna bilər.

**İşin aprobasiyası və tətbiqi.** Disserasiya işinin mövzusu ilə bağlı tədqiqatlar 1990-cı illərdən etibarən, türklər haqqında erkən Orta əsrlər dönəminə aid ərəb mənbələrinin tərəfimizdən öyrənilib nəşr edilməsi ilə başlamışdır. Bu dövr ərzində 60-dan artıq elmi məqalə dərc olunmuşdur. Bunlardan bilavasitə dissertasiya ilə bağlı 32 elmi məqalə Azərbaycan, Rusiya, Qazaxıstan, Türkiyə, Özbəkstan, İsveç, Fransa, Norveç, Almaniya, Hollandiya və Cənubi Koreyada azərbyacan, rus, ingilis, türk və fransız dillərində nəşr olunan dövrü mətbuatda, xüsusi toplularda və nəşrlərdə işıq üzü görmüşdür. Həmin nəşrlərdən özündə türk xalqları, o cümlədən xəzərlər haqqında məlumatları etiva edən erkən Orta əsrlərə aid ərəb mənbələrinin tərcüməsi əsasında hazırlanıb 1993 və 2017-ci illərdə nəşr edilmiş iki kitabı ayrıca qeyd etmək lazım gəlir. Tədqiqat materialları əsasında azərbaycan dilində hazırlanmış və 2018-ci ildə nəşr olunmuş xüsusi monoqrafiya isə xəzərlərin və Xəzər dövlətinin Azərbaycanın erkən Orta əsrlər tarixində rolundan xüsusi olaraq bəhs edir. Tədqiqatın nəticələri həmçinin Azərbaycan, Rusiya, Özbəkstan, Türkiyə, Böyük Britaniya, İtaliya, Qazaxstan və İranda keçirilən müxtəlif konfranslarda məruzə edilmişdir. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Orta əsrlər ərəb tarixi və iqtisadiyyatı, eləcə də Türkiyə tarixi və iqtisadiyyatı şöbələrinin 17 oktyabr 2018-

ci il və 21 dekabr 2018-ci il tarixlərində keçirilmiş iki birgə iclasında müzakirə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirilməsi təşkilatının adı.** Dissertasiya işi Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ərəb ölkələri tarixi və iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işinin ümumi həcmi (istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) 484,636 işarə təşkil edir. İş titul vərəqi (289 işarə), Mündəricat (4,/822), Giriş (46,289 işarə), 1-ci Fəsil (139,036 işarə), 2-ci Fəsil (84,920 işarə), 3-cü Fəsil (76,419 işarə), 4 Fəsil (117,365 işarə) və Nəticə (15,524 işarə) hissələrindən ibarətdir.

## II. DİSSERTASİANIN ƏSAS MƏZMUNU

**Giriş** tədqiqat işinin tematik, xronoloji və coğrafi konturlarını müəyyən edir və onun aktuallığını üç problem bloku – Xəzər dövlətinin ümumdünya tarixi əhəmiyyəti, xəzərlər haqqında müxtəlif mənbələrin mötəbərliyi problemi, Xəzər dövləti və Azərbaycan arasında qarşılıqlı əlaqələr və qarşılıqlı təsir məsələləri kontekstində əsaslandırır.

Burada, Girişdə dissertasiya mövzusu problemlərinin tədqiq edilməsi dərəcəsi, metodikası, yeniliyi və tədqiqatın elmi-praktiki əhəmiyyəti səciyyələndirilir. Tədqiqatın coğrafi sərhədləri Şimali Qara dəniz ətrafı çöllər zonasını, Volqanın orta və aşağı axarlarını, Xəzər dövlətinin ən qüdrətli zamanlarında (VIII əsr – X əsrin əvvəlləri) onun hakimiyyəti altında olan və tədqiqaçıların ənənəvi olaraq onun ərazisinə aid etdikləri Qafqazı, eləcə də, sözsüz ki, Cənubi Qafqazı, xüsusilə də Şimali və Cənubi Azərbaycan əyalətlərini əhatə edir.

Tədqiqaın xronoloji çərçivəsi xəzərlərin Qafqazda VI əsrin sonlarından gec olmayaraq peyda olmaları, eləcə də Xəzər xaqanlığının qüdrətinin X əsrin ortalarında Kiyev knyazı Svyatoslav İqoreviçin qoşunlarının qərbdən, türk oğuz ordularının isə şərqdən

endirdiyi zərbələr altında çöküşü ilə bağlı ümumi qəbul edilmiş fikirlərlə müəyyən olunur.

Xəzərlərlə ətraf xalqlar və dövlətlər arasındakı münasibətlər Avrasiya çöllərinin köçəriləri ilə oturaq əhali zonası arasında qarşılıqlı əlaqənin uzun, lakin təbii mərhələsi kimi inkişaf etmişdir. Yaradılan güclü qəbilə ittifaqları dağıdıcı yürüşlərdən qaçmaqdan ötrü xərac ödəməli olan oturaq qonşular üçün daimi hərbi təhlükə təşkil edirdi.[41] Cənubi Qafqazla sərhəddə güclü Xəzər dövlətinin mövcud olduğu üç əsr Şərqi Avropa xalqlarının dövlətçilik tarixinin başlanğıcı və Cənubi Qafqazın etno-siyasi xəritəsinin konfiqurasiyası üçün həlledici olmuşdur. Eyni zamanda, xəzərlər tarixinin ən əsas və ümumi məsələlərinin belə öyrənilməsi çətin maneələrlə - yazılı mənbələrdən bizə çatmış mübahisəli etibarlılığı ilə qarşılaşır.[42]

Burada həmçinin mövzunun aktuallığından çıxış etməklə, özünün alt bölmələri olan tematik bölmələrə ayrılmış dörd fəsildən ibarət işin strukturu təqdim olunur.

"Xəzər tarixi üzrə mənbələrin tədqiqi metodologiyası" adlı **Birinci fəsil** xəzərşünaslığın başlanğıc, açar probleminə – yazılı mənbələrin məlumatlarının uçotu və istifadəsi məsələlərinə həsr olunmuşdur. Xəzərlər haqqında müxtəlifdilli mənbələr bəzən bir-birini tamamlayır, ancaq bir sıra açar məsələlərdə isə bir-birini inkar edir. Tarixçilərin mübahisəli məsələlərə aid fikirləri çox vaxt onların ilkin mənbələrə münasibəti və bir məlumatı digərindən daha üstün hesab etməsi ilə müəyyən olunur. Çox vaxt bu "tərəfkeşliyin" mənbəşünaslıq tərəfindən izahı da olmur.[43] Xəzərlər haqqında ən

---

[41] Karoly Czegledy, "From East to West: The Age of Nomadic Migration in Eurasia, c. 25, 27, 29; С.Г. Кляшторный и Т.И. Султанов, *Государства Евразийских Народов: от древности к новому времени*, с. 92.

[42] P. Golden, "Khazar Studies: Achievements and Perspectives.", p. 10; Питер Голден, Достижения и перспективы хазарских исследований, с. 29.

[43] Л.Н. Гумилев, Древние тюрки (Москва: "Клышников-Комаров и Ко", 1993)., с. 5; Максим Жих, "Древняя Русь и Великая степь: симбиоз или противостояние? Размышления о концепциях Л.Н. Гумилёва и В.В. Кожинова.," Суждения, no. 9 (2012), http://suzhdenia.ruspole.info/node/3191 http://suzhdenia.ruspole.info/node/3192.

yeni araşdırmaların müəllifi üçün onun müxtəlif mənbələrə münasibəti üzrə mövqeyini aydın ifadə etməsi və arqumentləşdirməsi, tədqiqata cəlb olunan məlumatların mötəbərliyinin təsbiti qaçılmaz olur.

Məsələlərin bu kompleksinin nəzərdən keçirilməsi üçün fəslin 1.1. paraqrafında XX əsrin sonuncu onilliyində qərb tarix fəlsəfəsində işlənib hazırlanan tarixi narrativ və yaxud tarixi reprezentasiya nəzəriyyələrinin tətbiqinin məqsədəuyğunluğu əsaslandırılır. Tarixi narrativin keyfiyyətinə bu cür baxış, bir tərəfdən keçmiş haqqında məlumatların yazılı mənbələri və müasir elmi araşdırmalar arasında sədd çəkir, digər tərəfdən isə onları tarixi hadisələrin metaforik reprezentasiyası kimi bir-birinə yaxınlaşdırır. Tarixin reprezentasiyasının metaforikliyi istənilən tarixi narrativi hekayənin predmetinə yönəlik son dərəcə fərdi münasibətə, həm də bu zaman öz dövrü üçün xarakterik olan münasibətə çevirir.[44] Müasir tarixi tədqiqatların praktikasında bu, dissertasiya müəllifinin nöqteyi-nəzərincə, məlumat mənbəyinə tədqiqat müəllifinin şəxsi münasibətin mütləq şəkildə açılıb göstərilməsi zərurətinə gətirir ki, bu da ilkin mənbənin özünün reprezentasiyasının məntiqinin dərki ilə formalaşır.

Fəslin müvafiq paraqraflarında xəzərlərlə bağlı müxtəlif yazılı mənbələr qrupları haqqında müəllifin dəyərlənmələri təqdim olunur. Bölmə 1.2-də "Xəzər yazışması" sənədlərinin aşkarlanma tarixi və həqiqiliyi ilə bağlı mübahisələr təqdim olunur, yazışmaların mövcudluğunun reallığına dair rəy əsaslandırılır və sənədlərin ilkin mətndə hansı hallarda interpolyasiya edilməsi ehtimalları şərh edilir.[45]

---

[44] Е.В. Мишалова, "Исторический нарратив как форма организации и репрезентации исторического знания," Эпистемология и философия науки XXXI, no. 1 (2012), c. 161.

[45] П.К. Коковцов, Еврейско-Хазарская Переписка [Jewish-Khazar Correspondence] (Ленинград Издательство Академии Наук СССР, 1932).; Norman Golb and Omeljan Pritsak, Khazarian Hebrew Documents of the Tenth Century (Ithaca, N.Y.: Cornell University Press, 1982)., p. 184.

Xəzərlərlə əlaqədə olmuş qonşu xalqların yazılı abidələrində onların qavranılmasının tipologiyası 1.3-cü bənddə verilmişdir. Burada, həmçinin xəzərlər və Xəzər dövləti haqqında fundamental monoqrafiya müəlliflərinin xəzərlər haqqında mənbələrə verdikləri qiymətləndirmələr nəzərdən keçirilir, onların mənbələrin xüsusiyyətlərinə dair fikirləri təhlil edilir; mənbələrin səciyyələndirilməsinin və onların etibarlılığının müəyyən edilməsi xəzərlərlə bağlı müasir tədqiqatların ən zəruri lementi kimi əsaslandırılır.

Xəzər tədqiqatına dair 1.1 və 1.3-cü bəndlərdə əsaslandırılmış tələblərə uyğun olaraq fəslin sonrakı bəndlərində dissertant yazılı mənbələrin əsas kateqoriyaları haqqında - bu mənbələrdə xəzərlərlərə aid xəbərlərinin yer almasının tarixi şəraiti və məlumatların orijinallığı haqqında müəllifinin fikiriləri və mövqeyi izah edilir.

Paraqraf 1.4. "Keçmiş illərin hekayəsi" ndə (*Povest Vremennıx Let*) xəzərlər haqqında verilmiş məlumatların tarixi konsepsiyası və onların təqdimat üsulları müzakirə edilir. Diqqət ona yönəldilir ki, rus salnamələri Xəzər dövlətinin süqutundan cəmi bir əsr sonra yaradılıb və Kiyevdə Rurukoviçlərin hakimiyyətini qanuniləşdirməyə yönəlib. Xəzər hakimiyyəti haqqında məlumatlar müvafiq olaraq seçilmiş və bu vəzifəyə tabe olmaqla məhdudlaşdırılmış, xalq yaddaşında isə Mixailo Kazarin və Jidovinin epik obrazlarında xəzərlərin siyasi hakimiyyətinin hadisələri yaddaşda qalmışdır.[46] Cənubi Qafqaz xalqlarının erkən tarixi mənbələrindəki xəzərlər haqqında məlumatlarının ümumi və xüsusi cəhətləri, orta əsr erməni və gürcü müəlliflərinin məlumatlarında gözə dəyən anaxronizmlərin səbəbləri, və "Ağvan tarixi"ndə xəzərlər haqqında məlumatların təqdimatının tarixi konsepsiyası və özünəməxsusluğu paraqraf 1.5-də təhlil edilir. Erməni müəllifi Movses Xorenatsinin, ehtimal ki, III əsrin ikinci onilliyində xəzərlərin və barsillərin Cənubi Qafqaza yürüşü haqqında xəbərinə xüsusi diqqət yetirilir. Bu xəbər Qafqazda

[46] Peter B. Golden, Khazar Studies : An Historico-Philological Inquiry into the Origins of the Khazars, 2 vols., vol. 1, Bibliotheca Orientalis Hungarica (Budapest: Akadâemiai Kiadâo, 1980), p. 16.

xəzərlər haqqında yazılı mənbələrin ən erkən qeydə alınması hesab olunur. Mətnin tənqidi tədqiqi və abidənin etibarlılığı problemi Xəzər tarixinin xronologiyası üçün bu əsas xəbəri bölgədəki xəzərlərin sələfləri ilə bağlı, lakin xəzərlərə aid edilən hadisələrin 7-ci əsrdə xəzərlərin Cənubi Qafqaza yürüşlərinin müasiri olan müəllifin xatirəsi kimi müəyyən etməyə imkan verdi.[47] "Albanların tarixi"nin mənbələri və müəllifliyi məsələsi diqqətlə araşdırılır və abidənin Alban dövlətinin alban tarixi narrativi statusunda olması əsaslandırılır. Onun alban siyasi elitasının Qafqazın köçərilərinin, xüsusən də xəzərlərin dünyası ilə münasibətlərinin xüsusiyyətlərini əks etdirən məlumat mənbəyi olması isbat edilir. Abidənin alban ruhanilərinin və siyasi elitasının qərar və əməllərinin qanunauyğunluğu haqqında mühakimə edilməsi üçün mühüm mənbə olması, görünür, abidənin məzmununu müxtəlif dövrlərdə əlavə olaraq zənginləşdirilməsinə səbəb olmuşdur.[48]

Xəzərlərin erkən tarixi üçün suryani mənbələrinin əhəmiyyəti və onların ümimiyyətlə xəzər adının qeyd edilməsində ən erkən VI yüzilliyin ikinci yarısına aid etibarlı məlumat mənbəyi olması paraqraf 1.6-da xüsusi olaraq araşdırılır.[49] Bizans tarixçilərinin əsərlərində xəzərlər barədə məlumatların qeydə alınması vaxtı və şəraiti fəslin 1.7 saylı bəndinin mövzusudur. Çox əlamətdardır ki, 7-ci əsrin birinci yarısının müəllifləri, xüsusən də şərq ölkələrinin işlərindən Teofilakt Simokatta kimi məlumatlı olan müəlliflər

---

[47] Moses Khorenatsi, History of the Armenians, trans. Robert W. Thomson, Harvard Armenian Texts and Studies (Cambridge: Harvard University Press, 1978).; Robert W. Thomson, "Introduction," in Moses Khorenatsi. History of Armenians (Cambridge, Massachusetts: Harvard University Press, 1978)., c. 1, 13, 51, 58-59; И.Ю. Ващева, "Парадоксы Исторической Концепции Мовсеса Хоренци," Диалог со временем. 2012. Вып. 40. С. 219-230, no. 40 (2012)., c. 221-223

[48] Movses Dasxuranci, The History of the Caucasian Albanians, trans. C. J. F. Dowsett, London Oriental Series, (London, New York,: Oxford University Press, 1961)., p XX, XVIII

[49] Н.В. Пигулевская, Сирийские источники по истории народов СССР (Москва-Ленинград: Издательство Академии Наук СССР, 1941), c. 11, 21

xəzərlərin adını çəkmirlər. Çox güman ki, xəzərlər, o zaman Qafqazda olsalar da, Bizansla birbaşa toqquşmaya girmirdilər.[50]

Birinci fəslin 1.8-ci bəndində ərəb-müsəlman müəlliflərin xəzərlər haqqında məlumatlarının üstün xüsusiyyətləri, onların üstünlüyünü təşkil edən tərəflərinin səbəbləri acıqlanır. Bu mənbələrin xəzərlərlə qarşılıqlı əlaqə təcrübəsinin xəbər mənbəyi olmağı ilə yanaşı, onların həm də ərəb tarixi və coğrafi əsərlərinin müəllifləri tərəfindən toplanmış və qeydə alınmış əvvəlki mənbələrin, Sasani və yerli ənənələrin, sübutlarını ehtiva etməsi bildirilir. Ərəb xilafətində ictimai münasibətlərin və ideologiyanın təkamülü ümumi müsəlman mədəniyyətinin və ərəb dilində yazılı ənənənin yaranmasına gətirib çıxardı ki, onun inkişafında qeyri-ərəb ziyalıları iştirak edirdilər. Məsələn, ət-Təbəri (839-923), əl-Bəlazuri (vəfatı 892) və Əbu Hənifə əd-Dinəvəri (828-895) kimi müəlliflərin əsərlərində bizim üçün yəqin ki, əbədi itirilmiş əvvəlki yerli tarixi ənənələrinin xəbərlərini tapmaq mümkündür.[51]

Fəslin 1.9-cu bəndi çin mənbələrində xəzərlərin bir neçə qeydinin məzmununu və xronoloji çərçivəsini təqdim edir. Xəzərlər və Xəzər Kaqanlığı ilə bağlı əsas xəbərlər Çin salnamələrində, çox güman ki, ərəb əsirliyində 11 il keçirmiş Çinli hərbi əsirdən ötrü yol tapdı. Çin mənbələrində qeyd olunan doqquzuncu uyğur kağanı Hesa-teginin adını uyğur koalisiyasına daxil olan tayfalardan birinin adı ilə və uyğur daş-yazılı mənbələrdə Kasar adı ilə bağlamağa da əsas var. [52] Sonuncu bənd 1.10 Şərqi türk (uyğur) daşüstü

---

[50] А.П. Новосельцев, Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа [Khazar State and its significance in the history of the Eastern Europe and the Caucasus ] (Москва: "Наука", 1990)., c. 33.

[51] Abu Djafar Mohammad ibn Djarir at-Tabari, Annales Quos Scripsit Abu Djafar Mohammed Ibn Djarir at-Tabari Cum Aliis Edidit M. J. De Goeje. Series I-Iii. , 15 vols. (Lugduni Batavorum: E. J. Brill, 1879); Imamo Ahmed ibn Yahja ibn Djabir al-Beladsori, Liber Expugnationis Regionum (Lugduni Batavorum: E.J. Brill, 1866); Abu Hanifa Ahmad ibn Dawud ibn Wanand al-Dinawari, The Book of Lengthy Histories, (2012), http://www.mrjb.ca/current-projects/abu-hanifah-ahmad-ibn-dawud-al-dinawari

[52] Lin Ying, "Some Chinese Sources on the Khazars and Khwarazm," Archivum Eurasiae Medii Aevi 11 (2000-2001)(2001), p. 354; Shun Shirota, "The Chinese

abidələrində bəzi məlumatların xəzərlərə aid edilməsinin nəzərdən keçirilməsinə həsr edilmişdir. Bu abidələrin tapılması və onların xəzərlərin şərq mənşəyini dəstəkləyən şərhi məşhur rus türkoloqu S.Q.Klyaştornıya məxsusdur və o, bu kitabələrdə xəzərlərin güman edilən eponiminin Kadır Kasarın qeydini aşkar etmişdi.[53]

Dissertasiyanın "Xəzərlər Avrasiya xalqlarının erkən Orta əsrlər tarixində" adlı **ikinci fəsli** məhz bu məqsədə – xəzərlərlə təması təsdiq olunmuş Avrasiya xalqlarının milli tarixşünaslıq məsələlərinin öyrənilməsi ilə bağlı müasir xəzərşünaslığın nailiyyətlərini təqdim etməyə xidmət edir. Bu fəslin başlıca əhəmiyyəti ondadır ki, tədqiqat işinin qarşısında duran məsələlər burada xəzərşünaslıq problemlərinin geniş spektri mövqeyindən nəzərdən keçirilir.

Xəzərlərin identikliyi və tarixi təcrübələrinin xüsusiyyətlərinin tədqiqi üçün ən vacib məsələ heç şübhəsiz ki, onların iudaizm və yəhudi xalqının erkən Orta əsrlər tarixi ilə bağlılığıdır. Fəslin 2.1 bölümü orta əsr yəhudi müəlliflərinin xəzərlərə münasibətinə həsr olunmuşdur. Yəhudilik tarixində Xəzər dövlətinin qiymətləndirilməsi üçün parametrlər 11-ci əsrdə ivrit dilinə tərcümədə "Sefer Ha-Kuzari" (Xəzər kitabı) kimi tanınan Yehuda Halevinin (1075-1144) kitabında verilmiş və onların əhəmiyyəti, demək olar ki, 20-ci əsrə qədər saxlanılmışdır. Yəhudi orta əsrlərinin görkəmli mütəfəkkiri xristianlıq, islam və karait təlimləri ilə teoloji polemikasında Xəzər

---

Chroniclers of the Khazars: Notes on Khazaria in Tang Period Texts," ibid.14(2005), p. 232, 254-255

[53] С.Г. Кляшторный and Т.И. Султанов, Государства и народы евразийских степей: древность и средневековье, второе издание, исправленное и дополненное, (Санкт-Петербург: "Петербургское востоковедение", 2004), с. 170, 173; С.Г. Кляшторный, Рунические памятники уйгурского каганата и история евразийских степей (СПб: Петербургское Востоковедение, 2010), с. 6; Фарда Асадов, Хазары и барсилы в исследованиях С.Г.Кляшторного / Тюрко-Монгольский мир в прошлом и настоящем. Материалы Междунардной конференции, посвященной памяти Сергея Григорьевича Кляшторного (1928-2014) (Санкт-Петербург – Улан-Батор: Российская Академия Наук, Институт Восточных рукописей/Монгольская Академия Наук, Институт Истории и Археологии, 2016).

dövləti xəbərlərindən əfsanəvi fon kimi istifadə etmişdir.[54] Fəslin 2.2 bölümü Xəzər dövlətinin Mərkəzi Avrasiya tarixindəki böyük əhəmiyyəti barədə müasir xəzərşünaslığın banilərinin əsərlərindəki fikirlərin formalaşma mərhələlərini işıqlandırır.[55]

Sonrakı bölümlər Xəzər dövlətinin regional əzəmətinin müxtəlif aspektlərinidiqqətə alır. Dissertasiyanın 2.3 bölümü macarların tarixinin başlanğıcına və macar alimlərinin xəzərşünaslığa verdikləri töhvələrə həsr edilmişdir. Xəzərlərin türk mənşəli olduğunu inandırıcı şəkildə sübut edən məs macar tarixçiləri və dilçiləri olmuşdur.[56] Ondan sonrakı bölüm 2.4. xəzərlərin mənşəyi məsələsinə uqor və türk dünyalarının qarşılıqqlı əlaqələri prizmasından yanaşır. Həmçinin burada Macarstanda xəzərşünaslıq elminin inkişafı macar xalqının ilkin tarixini ümumi Avrasiya tarixi kontekstində öyrənməsi platformasından geniş beynəlxalq elmi əməkdaşlıq təşəbbüslərinə qədərki yolu göstərilir. Amerika türkoloqu Piter Qolenin xəzərşünaslığın müasir problemlərinin bütün spektrində, o cümlədən xəzərlərin müasir Avrasiya xalqlarının əcdadları ilə qarşılıqlı əlaqəsi aspektlərində xəzər tarixşünaslığının hazırkı inkişaf mərhələsinin formalaşmasına verdiyi töhfə xüsusilə vurğulanır.[57]

---

[54] Judah Halevi, Judah Hallevi’s Kitab Al Khazari. Translated from Arabic by Hartwig Hirschfeld, Ph.D. (London: M.L. Cailingold, 1931), p. 6, 12, 27; Eliezer Schweid, "The Khazar Motif in Judah Halevi's Sefer Ha-Kuzari," in The World of Khazars: New Perspectives. Selected Papers from the Jerusalem 1999 International Khazar Colloquium Hosted by the Ben Zvi Institute. , ed. Haggai ben Shammai Peter B. Golden, Andras Rona-Tas., Handbook of Oriental Studies, Section 8: Uralic and Central Asian Studies, (Brill Academic Publishers, 2007), p. 279

[55] D.M. Dunlop, The History of the Jewish Khazars (Princeton: Princeton University Press, 1954).; М.И. Артамонов, История Хазар (Ленинград: Эрмитаж, 1962; repr., 2002).

[56] Gyula Nemeth, A Honfoglalo Magyarsag Kialakulasa [Ethnogenesis of the Hungarian people prior to the Conquest)] (Budapest1930); Peter B. Golden, Khazar Studies : An Historico-Philological Inquiry into the Origins of the Khazars, 2 vols., vol. 1, Bibliotheca Orientalis Hungarica (Budapest: Akadâemiai Kiadâo, 1980), p. 22

[57] Peter. B. Golden, "Khazar Studies: Achievements and Perspectives," in The World of the Khazars: New Perspectives. Selected Papers from the Jerusalem 1999

Bölmə 2.5 xristianlıqdan əvvəlki Rusiyanın tarixində xəzərlərin rolu ilə bağlı mübahisələrin aspektlərinə həsr edilmişdir. “Keçmiş illərin hekayəsi” salnaməsində xəzərlərlə bağlı xəbərlərin məzmunu, istifadə edilmiş ifadələr və salnamə müəllifin nəql etdyi xəbərlərə mövqeyi və , xəzərlərin siyasi irsinə münasibəti təhlil edilir və regionun o zamankı tarixi şəraiti kontekstində nəzərdən keçirilir. Qədim Rusiyanın tarixində xəzərlərin əhəmiyyətinin öyrənilməsinin dinamikası Şərqi Slavyan dövlətçiliyinin yaranması məsləsində ənənəvi olaraq normanist və slavyansevərlər və ya anti-normanist konsepsiyalarının qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur. Son zamanlar Kiyev Rus-unun yaranması ərəfəsində xəzərlərin və normanların siyasi təsir dairələrinin bölüşdürülməsi ideyasına əsaslanan normanistlərin və xəzərlərin mühüm rolunun tərəfdarlarının yaxınlaşması tendensiyasını müşahidə etmək olur.[58] Bu, yeni anti-normanistlərə onların mövqeyinə zidd olan yeni “Xəzər-Norman” konsepsiyasının yaranması haqqında danışmağa imkan verir.[59] Əksər tədqiqatçıların fikrincə, arxeologiya Xəzər tarixinin sirləri haqqında yeni məlumatlar vermək üçün ən böyük potensiala malikdir. Əgər əvvəllər xəzərlərin öyrənilməsinin alternativ üsulları kimi yazılı abidələrin və arxeoloji məlumatların tədqiqinə qarşı çıxırdısa, son illərdə xəzər məsələlərinə dair arxeoloji nəşrlərin payı əhəmiyyətli dərəcədə üstünlük təşkil edir və kollektiv monoqrafiyalar arxeoloqların və mənbəşünasların səylərini birləşdirir.[60] Bu paraqrafın nəticələri digər Avrasiya xalqlarının erkən

International Khazar Colloquium Hosted by the Ben Zvi Institute. , ed. Peter B. Golden, Haggai Ben-Shammai, and Andras Rona-Tas (Leiden: Brill, 2007)., p. 13; P. B. Golden, "The People: نوكردة " Archivum Eurasiae Medii Aevi 1(1975)., p. 21-37; "The Question of the Rus' Qağanate," Archivum Eurasiae Medii Aevi II(1982)., p. 77-97; Peter B. Golden, "Khazar Turkic Ghulâms in Caliphal Service," Journal Asiatique 292, no. 1-2 (2004)., p. 279-309.

[58] В. Я. Петрухин, Начало Этнокультурной Истории Руси IX–XI Веков (Смоленск-Москва: Русич-Гнозис, 1995), с. 83-94

[59] Е.С. Галкина, Тайны Русского Каганата (Москва: Вече, 2002), с. 21-38.

[60] А. З. Винников and В. Я. Петрухин, "Международная Научная Конференция «Хазарский Каганат и его место в исторических судьбах

tarixində Xəzər dövlətinin əhəmiyyətini anlamaq üçün xarakterik görünür.

Xəzər dövlətinin və cəmiyyətinin tarixinin mübahisəli məsələləri müasir dövlətlərin daxili və beynəlxalq siyasətində özünəməxsus şəkildə əksini tapır. Xəzərşünaslıq məsələlərinin öyrənilməsində və inkişafında qanunauyğunluqlarının dərk edilməsi üçün xəzərlərin tarixinə marağı artıran bu stimulların da məzmunu və məntiqini təsəvvür etmək lazımdır.[61] Bədii ədəbiyyat müasir xalqlar arasında ictimai rəyin və xəzərlərə münasibətin bir növ əksi sayıla bilər. Xəzər obrazlarının təkamülü, tarixi bədii ədəbiyyatda xəzər mövzularının kəmiyyət göstəriciləri xəzərlərin tarixinin müasir elmdə aktuallığını izah etməklə yanaşı, elmi tədqiqatlara da müəyyən təsir göstərə bilər. Bölmə 2.6-da dünya bədii ədəbiyyatında xəzərlərin tarixinin işıqlandırılması tendensiyalarının qısa icmalı yer alır, dünyadakı dəyişmiş siyasi şəraitə diqqət çəkilir, xəzərlərin tarixinə marağın artmasına səbəblər acıqlanır.

İnsanın və insan cəmiyyətinin öyrənilməsinin yeni elmi sahələrin və üsullarının meydana gəlməsi ənənəvi mənbələrin tarixçilər üçün kifayət qədər məlumat saxlamadığı halda xalqların tarixini öyrənilməsi üçün yeni imkanlar açır. 2.5-ci bənddə bəhs edilən arxeoloji qazıntıların genişlənən yeni imkanları və üsulları ilə yanaşı, ilk növbədə, insan elmlərinin yeni sahəsi olan tarixi genetikaya münasibətin müəyyən edilməsinin zəruriliyi əsaslandırılır. Xəzər tarixinə aid materialların genetik tədqiqatlarının ilk nəticələri fəslin 2.7-ci bəndində təsvir edilmişdir. Hələ XX əsrin əvvəllərində Şərqi Avropa Aşkenazi yəhudilərinin Xəzər

---

Народов Восточной Европы»," Хазарский альманах 14, no. 1 (2016); Т.М. Калинина, В.С. Флёров, and Петрухин В. Я., Хазария В Кросскультурном Пространстве: Историческая География, Крепостная Архитектура, Выбор Веры (Москва: Рукописные памятники Древней Руси, 2014).

[61] Farda Asadov. Khazar Studies locked between Scarcity of Research Sources and Contemporary Policy Concerns // - London: The Eurasia Studies Society Journal, - 2013, vol.2, No.3. April 2013. URL: (http://eurasiahistory.files.wordpress.com/2013/03/farda-asadov-tess-eurasia-journal-vol-2-no-3-april-20132.pdf

yəhudilərindən mənşəyi haqqında ifadə edilən nəzəriyyə ilə əlaqədar genetik tədqiqatlar xüsusi aktuallıq qazanmışdır. [62] Bu bölümdə həmçinin xalqların tarixi keçmişinin mənzərəsinin bərpasında genetik tədqiqatlardan istifadənin məhdudiyyətləri və çətinlikləri ilə bağlı dissertantın mövqeyini ifadə edilir.

**Üçüncü** və **Dördüncü fəsillər** xəzərlərin və Xəzər dövləti tarixinin Azərbaycanla üzvi surətdə bağlı olması məsələsini qoyur. Xəzərlərin Azərbaycan əhalisinin tarixi taleyinə, ölkənin bugünkü etnik xəritəsinin formalaşmasına, azərbaycanlı identikliyinin əsaslarının inkişafına təsiri Xəzər dövlətinin və Azərbaycanın siyasi tarixi məsələləri ilə məhdudlaşmır. Türkdilli əhalinin Azərbaycana nüfuz etməsi və tədricən burada üstünlüyü ələ keçirməsi prosesində xəzərlərin rolu onların türk mənşəyinə apellyasiya edən bir neçə ötəri qeydi nəzərə almasaq, praktik olaraq nəzərdən keçirilməmişdir. Heç də istisna deyil ki, bunun başlıca səbəbi oğuzların Azərbaycanın türkləşməsindəki roludur. Belə ki, onlar Xəzər xaqanlığının mövcudluğunun son dövründə xaqanın hakimiyyətinə qarşı düşmən münasibətdə idilər və knyaz Svyatoslav İqoreviçin rusları ilə ona qarşı birləşib bir zamanların qüdrətli dövlətinin faktik qəbirqazanına çevrilmişdilər.

Xəzər elitasının iudaizmi qəbul etməsi faktı və xəzər cəmiyyətində iudaizmin yayılma dərəcəsi də kifayət qədər öyrənilməmiş məsələlərdir. Lakin xəzər tarixi ilə maraqlananların böyük bir hissəsində Xəzər dövlətində dini vəziyyət barədə bəsit fikirlər formalaşmışdır. Əslində isə xəzər cəmiyyətində bir sıra inamlar, o cümlədən islam dini də yayılmışdı. Xəzərlər arasında müsəlman dininin yeri barədə bizim mənbələrin məlumatları ziddiyətlidir. Xəzər islamının qonşu bölgələrə və onların əhalisinə təsiri də praktik olaraq araşdırılmamışdır. Ərəb qaynaqlarının

---

[62] Eran Elhaik, "The Missing Link of Jewish European Ancestry: Contrasting the Rhineland and the Khazarian Hypotheses," Genome biology and evolution 5, no. 1 (2013); David B. Goldstein, Jacob's Legacy: A Genetic View of Jewish History (New Haven & London: Yale University Press, 2008); Evan R. Goldstein, "Taste – Houses of Worship: Where Do Jews Come From?," Wall street Journal,, , 30 Oct, 2009, 2009.

müsəlman-xəzərlər barədə məlumatlarının metodik şəkildə öyrənilməsi şübhəsiz ki, islamın türk xalqları və Azərbaycan əhalisi arasında yayılması haqqında təsəvvürlərimizi dəqiqləşdirməyə imkan yaradır.

Bununla əlaqədar olaraq tədqiqatın **Üçüncü fəslini** “VII-X əsrlər Azərbaycan tarixinin xəzər aspekti” adlandırmışıq. Bu fəsildə xəzərlərin Azərbaycan əhalisi və ərazisi ilə əlaqələrindən bəhs edən yazılı və arxeoloji məlumatlar toplanıb öyrənilmişdir. Bu fəslin 3.1 bəndi xəzərlərin Qafqazda peyda olmasından əvvəlki dövrdə Qafqaz dağların arxasından köçərilərin Albaniya ərazisinə nüfuz etməsindən bəhs edir. Köçərilərin dağlarının arxasından Albaniya ərazisinə yürüşləri yalnız talançılıq reydləri deyil, həm də çox vaxt böyük dövlətlərin ekspansiyasına qarşı birlikdə mübarizə məqsədi daşıyırdı. Yerli əhali və köçərilər – hunlar, sabirlər və nəhayət xəzərlər yalnız savaşmamış, həm də malların şimaldan cənuba və əks istiqamətdə təhlükəsiz nəqlini təmin etməklə birlikdə ticarətlə məşğul olmuşlar. Türklərin Qafqaza sızması və məskunlaşması IV əsrin ortalarında hunların burada kütləvi şəkildə görünməsindən iki əsr əvvəl baş vermişdir.[63]

Fəslin 3.2-ci bəndində Qərbi Türk Xaqanlığının süqutu nəticəsində başlanmış siyasi və köç prosesləri zamanı xəzərlərin meydana çıxması və müasir Azərbaycanın şimal sərhədlərində Xəzər dövlətinin yaranması üçün tarixi şərait öyrənilir. Xəzər xaqanlığının yaranmasının İlkin mərhələsində siyasi prioritetlərini və ittifaqlarını müəyyən edən 625-627-ci illər İran-Bizans müharibəsi hadisələri idi. O zaman Bizansın müttəfiqi kimi çıxış etmiş Qərbi Türk Xaqanlığı Cənubi Qafqazdakı əməliyyatların əsas yükünü üzərinə götürmüşdü. Bu hadisələrdə yerli alban və erməni mənbələrinə görə türk qüvvələri

---

[63] Peter B. Golden, "The Turkic Peoples and Caucasia," in Conference on "Nationalism and Social Change in Transcaucasia" (1980)., p. 2-7; An Introduction to the History of the Turkic Peoples : Ethnogenesis and State-Formation in Medieval and Early Modern Eurasia and the Middle East, Turcologica, (Wiesbaden: O. Harrassowitz, 1992)., p. 86; Я.А. Федоров and Г.С. Федоров, Ранние Тюрки на Северном Кавказе (Москва: Издательство Московского Университета, 1978), c. 25-27.

xəzərlərin aparıcı rolu altında cəmləşmiş yerli türk tayfaları ilə təmsil olunurdu.[64] Bu bölmə xəzər kimliyinin parametrləri problemini səciyyələndirir, onun yazılı mənbələrdə bildirilən xəzərlərin inancında baş vermiş dəyişikliklərlə əlaqəsi məsələsini qaldırır - Xəzər ölkəsi əhalisi arasında xristianlığın və islamın yayılması haqqında yazılı mənbələrdən dəlillər təqdim edir[65] Xəzər ölkəsində dini müxtəlifliyin qısa icmalı oradakı dini vəziyyətlə Cənubi Qafqaz ölkələrindəki, xüsusən Albaniya və Gürcüstandakı vəziyyət arasında bənzərliyə dəlil gətirir. VIII-IX əsrlərin astanasında yəhudiliyi qəbul etməsi. Xəzər cəmiyyətinin siyasi həyatının daha sonrakı inkişafına, ondan sonra isə müasir dövrdə xəzərşünaslığın inkişafı tendensiyalarına səbəb olmuş mühüm dönüş kimi səciyyələndirilir.

Sonrakı iki paraqrafda xəzərlər tarixinin mübahisəli, həll olunmamış məsələləri iki müstəvidə nəzərdən keçirilir. Birincisi, 3.3-cü bənddə, bu, xəzərlərin və Xəzər dövlətinin tarixinin dünya-tarixi əhəmiyyəti kontekstində həyata keçirilir. Xəzər dövlətinin tarixinin iki ən mühüm nəticəsi onun dünya tarixində əhəmiyyətinin miqyasını müəyyən etdi: bu, xilafətdə mərkəzləşdirilmiş hakimiyyətin mövcud olduğu bütün dövrlərdə ərəb-müsəlman dövləti ilə qarşıdurma və qarşılıqlı əlaqə, və şərqi slavyanların dövlətçiliyinin yaranması və Mərkəzi Avrasiyanın siyasi səhnəsində peyda olmasında xəzərlərin oynadığı roldur. Xəzərlərin tarixinin bu aspektlərinin hər biri bu günə qədər elmi müzakirə sahəsi olaraq qalır: xəzərləri islamın genişlənməsinin qarşısını alan amil hesab etmək lazımdırmı, yoxsa

---

[64] D.M. Dunlop, The History of the Jewish Khazars (Princeton: Princeton University Press, 1954)., pp. 4-5; Л.Н. Гумилев, Древние тюрки (Москва: "Клышников-Комаров и Ко", 1993)., p. 193

[65] Abu Ishaq Ibrahim b. Muhammad al-Farisi al-ma'ruf bi al-Karkhi Al-Istakhri, Al-Masalik Wa Al-Mamalik (al-Kahira: Wizarat as-saqafa wa al-irshad al-qaumi, 1961)., c. 129, 131. Abu Muhammad Ahmad ibn Actham Al-Kufi, Kitab Al-Futuh, 1 ed., 3 vols., vol. 3 (Dar al-adwa li at-taba’a wa an-nashr va at-tauzi’, 1991)., p. 255; Мовсес Каланкатуаци, История Страны Алуанк, перев. Ш.В.Смбатян (Ереван: Матенадаран, 1984)., c. 127; Miskawaihi, The Eclipse of the Abbasid Caliphate. The Concluding Portion of the Experience of the Nations (London: Basil Blackwell, 1921)., p. 209.

müsəlman ərəbləri Şərqi Avropada xəzərləri irəliləmədən saxlatdıran amil kimi qəbul etmək lazımdır?[66]

Xəzər dövlətinin dünya-tarixi əhəmiyyəti haqqında müzakirənin davamı xəzərlərin Şərqi Aropa regionunun tarixində roluna iki müxtəlif nəzər bucağından baxılmasından keçir: birincisi, Şərqi Avropada hərbi-siyasi vəziyyətin sabitləşdirilməsi və müvafiq olaraq, şərqi slavyan tayfalarının inkişafı və onların gəlirli beynəlxalq ticarətə cəlb edilməsi üçün iqtisadi əsasların möhkəmləndirilməsi amili kimi, və əksinə, Xəzər amilinin Şərqi slavyanların mütərəqqi inkişafında maneə kimi müəyyən edilməsi nəzərlərindən.[67]

Xəzər dövlətinin mərkəzi ərazilərində bu gün əsasən müsəlman xalqlarının məskunlaşması faktı SSRİ-nin dağılmasından sonra onların milli tarixşünaslıqlarının prioritetlərinə yenidən baxılması prosesində xəzərlərin tarixinə münasibətlərinin bugünkü xüsusiyyətlərini müəyyən edir. 3.4-cü bənddə. keçmiş SSRİ xalqlarının: rus, ukrayına, qafqaz xalqlar, qazax xalqının,[68] - milli

---

[66] Dunlop, The History of the Jewish Khazars., p. X; Артамонов, История Хазар , c. 224-225.

[67] Vladimir Minorsky, "A New Book on the Khazars. By V.Minorsky. (a Review of D. M. Dunlop's "the History of the Jewish Khazars" (1954)," Oriens XI, no. 1-2 (1958)., p. 123; Артамонов, История Хазар , c. 225, 229.

[68] Э.Д. Ващенко, "Хазарская Проблема" в отечественной историографии XVIII - XX вв. (Санкт-Петербург: Издательство Санкт-Петербургского Университета, 2006); В.Г. Манягин, "Операция "Белый Дом": Хазары в русской истории," / Хазары: Таинственный след в русской истории, ред. Манягин В. (Москва: Алгоритм: ЭКСМО, 2010)., c. 221, 224; П.П. Толочко, "К вопросу о хазаро-иудейском происхождении Киева," Хазарский альманах 2(2004)., c.100; А.В. Комар, "Ранние Хазары В Северном Причерноморье (Постановка Проблемы)," Восточно-европейский археологический журнал, no. 3(4) (2000), http://archaeology.kiev.ua/journal/030500/komar.htm.; "Исторические предпосылки возникновения легенды о полянской дани хазарам по археологическим данным," in Хазары, Евреи И Славяне (Москва: Гешарим/Мосты культуры, 2006)., c. 214; Муртазали Гаджиев, "Сообщение Хоренаци о походе хазир и басил в 216 г. и этнокарта северо-западного Прикаспия в поздне-сарматский период," / Caucaso-Caspica: Труды Института автохтонных народов Кавказско-Каспийского региона, ред. Гарник Асатрян

tarixşünaslıqlarında xəzərlərin tarixinə dair yeni konseptual müddəaların qısa müqayisəli təhlili aparılır.

Üçüncü fəsilin ardıcıllığı sırasına və dissertasiyanın məqsədlərinə uyğun olaraq, 3.5-ci bənddə Sovet və postsovet dövrləri Azərbaycan milli tarixşünaslığında xəzərlər tarixinin öyrənilməsinin əsas istiqamətləri izlənilir, Azərbaycan türklərinin etnogenez prosesində ilk növbədə türk komponenti kimi xəzərlərin əhəmiyyətinin qiymətləndirilməsi aparılır və Xəzər dövlətinin tarixinə nisbətən təcrid olunmuş münasibətin səbəbləri izah edilir.[69]

Bunun ardınca (bənd 3.6) Azərbaycan ərazisinin və əhalisinin bir hissəsinin xəzər siyasi ittifaqının formalaşmasında iştirakı məsələsi, eləcə də ərəblərin Cənubi Qafqazda peyda olması ərəfəsində və onların ilk dövrlərində Xəzər dövlətinin Azərbaycanda siyasi təsirinin hüdudları tədqiq olunur. [70] Albaniya ilə Qafqaz köçəriləri arasında sıx siyasi və ticarət əlaqələri bu qonşu ərazilərin əhalisi arasında qarşılıqlı iqtisadi və mədəni əlaqənin əsasını təşkil

---

(Ереван: Издательство РАУ, 2016), с. 17-18; К.М. Алиев, "О влиянии хазарских евреев на этнос и культуру кумыков ", История, историография и этнография горских евреев, Дербент, 29-30 марта 2009, http://kumukia.ru/article-9391.html; Б.Б. Ирмуханов, Хазары и казахи: связь времен и народов. (Алматы: «Наш Мир», 2003)., с. 250, 276.

[69] Зия Буниятов, Азербайджан В VII –IX вв. (Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1965)., с. 180-181; Сара Ашурбейли, Государство ширваншахов (Баку: Элм, 1983), с. 22, 55-56; С.А. Сумбатзаде, Азербайджанцы - этногенез и формирование народа (Баку: Элм, 1990)., с. 82, 85; С.Ю. Касумова, Азербайджан В III - VII вв. (Этнокультурная и социально - экономическая история) (Баку: Элм, 1993)., с. 4; Г.А. Гейбуллаев, К этногенезу азербайджанцев (историко-этнографическое исследование), т. 1 (Баку: Элм, 2001)., с. 139, 390; Э.Р. Исмаилов, Очерки по истории Азербайджана (Москва: Флинта, 2010), с. 36-37; Играр Алиев, ред. История Азербайджана с древнейших времен до начала XX в. (Баку: Элм, 1995), с. 103; Н.Ч. Ахундова и Р.А. Гусейн-заде, Кавказ и великие тюркские империи (Баку: EUROCLIO, 2012), с. 61.

[70] З.М. Буниятов, "О длительности пребывания хазар в Албании В VII-VIII вв," Известия АН Аз.ССР, Серия общественных наук, no. №1 (1961)., с. 22, 32-33; Ahmad b. Abi Yaqub al-maruf bi Ibn al-Wadih al-Akhbari, Tarikh Al-Ya'kubi, 3 vols. (an-Najaf1939), vol. 3, c. 145-146; Dunlop, The History of the Jewish Khazars., p. 21

edirdi. Albaniya ərazisinə köçərilərin köçürülməsi,[71] onların qismən məskunlaşması və otlaq sahələrinin mənimsənilməsi baş verirdi, o dövrdə Azərbaycan ərazisində iri və xırda maldarlığı və əkinçiliyi birləşdirən ənənəvi təsərrüfatçılıq növləri formalaşırdı. Alban kilsəsi Qafqazın köçəriləri arasında xristian maarifçiliyi missiyasını özərinə götürürdü.[72] Azərbaycanın Ərəb xilafətinin və müsəlman dünyasının tərkibinə daxil olması Azərbaycanın Xəzər dövlətində və cəmiyyətində vəziyyətə təsir faktoruna çevrilirdi.

Ərəb-xəzər müharibələrinin nəticələri 3.7-ci bənddə araşdırılır və onların beynəlxalq ticarət sahəsində sülh şəraitində əməkdaşlığa istiqamətlənmiş keyfiyyətcə tamamilə yeni münasibətlərə keçmələrinin səbəbləri əsaslandırılır. Qeyd olunduğu kimi, əhalinin mədəni-təsərrüfat əlaqələrinin əsasında Albaniya və Qafqaz köçərilərinin sıx siyasi və ticarət təmasları dururdu.

Azərbaycanın ərəb xilafəti və müsəlman dünyası hüdudları içərisinə alınması ona Xəzər dövləti və cəmiyyətindəki vəziyyətə təsir imkanları da yaradırdı. Bir vaxtlar xəzərlərin hüdudlarına xristianlıq yayan mərkəzlər – Albaniyanın sərhəd bölgələri və Dərbənd şəhəri indi Xəzər dövlətində islamı yayma mərkəzinə çevrilmişdi. Xəzər dövlətinin Azərbaycana cavab mədəni təsir amili isə Ərəb xilafətinin islamı qəbul etmiş xəzərləri beynəlxalq ticarət yollarının Azərbaycandan keçən əsas hissələri boyunca yerləşən şəhərlərdə məskunlaşdırması siyasəti olmuşdur.[73] Bölmə 3.8. Xəzər dövlətində İslama münasibət və İslamın durumunu ümumiləşdirir, Xəzər cəmiyyətində və dövlətində İslamın yayılmasının hüdudlarını müəyən edir. Burada Xəzər xaqanın Mərvan b. Məhəmməd 737-ci

---

[71] Imamo Ahmed ibn Yahja ibn Djabir al-Beladsori, Liber Expugnationis Regionum (Lugduni Batavorum: E.J. Brill, 1866), p.194.

[72] Каланкатуаци, История Страны Алуанк., с. 126-127.

[73] Al-Kufi, Kitab Al-Futuh, 3., vol. 3, p.254-255; Abu al-Kasim Ubaydallah Ibn Abdallah Ibn Khordadhbeh, Kitab Al-Masalik Wa'l-Mamalik, ed. M.J. de Goeje, editio secunda (photomechanice iterata) ed., Bibliotheca Geographorum Arabicorum (Lugduni Batavorum: E.J. Brill, 1967)., p. 124; Ahmad ibn Muhammad al-Hamadhani Ibn al-Faqih, Compendium Libri Kitab Al-Boldan : Auctore Ibn Al-Fakih Al-Hamadhani, Quod Edidit, Indicibus Et Glossario Instruxit M. J. De Goeje ibid. (Lugduni-Batavorum: E. J. Brill, 1885)., p.298.

ildəki yürüşünün xəzərlərlə qarşıdurmada dönüş nöqtəsi olması və beynəlxalq ticarət maraqları naminə dinc münasibətlərin və tərəfdaşlığın qurulması nəticəsinə gətirilməsi isbat edilir. [74] Xəzər Kaqanlığının əhalisi arasında islam dininin yayılması haqqında ərəb mənbələrindən tutarlı dəlillər verilir.[75]

Tədqiqatın 3.9-cu bölümündə Azərbaycanda xəzərlərin və xəzər mədəniyyətinin mövcudluğunu sübut edən maddi mədəniyyət abidələrinə xüsusi diqqət yetirilmişdir. Burada Azərbaycanın şimal-qərb bölgəsindən əldə olunmuş, xəzər mənşəli əhalinin Azərbaycanın ticatət mərkəzlərində mövcudluğunu və beynəlxalq ticarət əməliyyatlarında fəal iştirakını təsdiq edən bəzi arxeoloji tapıntıların yeni interpretasiyası təklif olunmuşdur.[76]

Üçüncü fəslin sonuncu 3.10-cu bəndində xəzərlərin Albaniyanın (və ya Arranın - müasir Azərbaycan ərazisinin) əhalisi, siyasi elitası və cəmiyyəti ilə qarşılıqlı əlaqəsi ümumiləşdirilir, xəzərlərin Azərbaycanda türk əhalinin artımı və ölkənin

---

[74] Farda Asadov, "Evidence of Khazar Judaism: What Did It Add to the Early History of World Religions in the Caucasus?," in Religions in the Caucasus (Baku: TEAS Press publishing house, 2016), c.43-45.

[75] Abu al-Hasan Ali ibn al-Husayn al-Masudi, Muruj Adh-Dhahab Wa Ma'adin Al-Jawhar, 4 vols. (Beirut: Dar Sadir, 2005)., v. II, p. 139; Abu Ishak Ibrahim ibn Muhammad al-Istakhri, Kitab Masalik Al-Mamalik, Bibliotheca Geographorum Arabicorum (Leiden: E.J.Brill, 1927)., p. 220, 224

[76] Г.О Гошгарлы, Типология погребальных памятников античного периода на территории Азербайджана (Баку: Элм, 2012)., c. 116-120; Irina A. Arzhantseva, "The Alans: Neigbours of Khazars in the Caucasus," in The World of the Khazars: New Perspectives. Selected Papers from the Jerusalem 1999 International Khazar Colloquium Hosted by the Ben Zvi Institute. , ed. Peter B. Golden, Haggai Ben-Shammai, and Andras Rona-Tas (Leiden: Brill, 2007)., p. 60; The Gabala Archaelogical Expedition 2005-2010. Findings. (Baku: CBS Publishing House, 2011)., p. 121; В. Петрухин and В. Флёров, " Иудаизм в Хазарии по данным археологии " / История еврейского народа в России. От древности до раннего нового времени (Москва: Мосты культуры/Гешарим, 2010)., c. 153-154; А.А. Иессен, "Раскопки большого кургана в урочище Уч-Тепе," / Труды Азербайджанской Археологической Экспедиции (1956-1960 Гг.), ред. А.А. Иессен и К.Х. Кушнарева, Материалы и исследования по археологии СССР (М.-Л.: Наука, 1965)., c. 180-181.

müsəlmanlaşması vektoruna transformasiya edilməsi fikri əsaslandırılır.

Tədqiqatın **Dördüncü fəsli** xəzərlərin Azərbaycan tarixindəki vacib rolunun iqtisadi aspektlərinin öyrənilməsinə həsr olunmuşdur. Xəzər dövlətinin mövcudluğunun ümumdünya tarixi əhəmiyyəti onun öz dövrünün qüdrətli dövlətləri, xüsusilə də Ərəb xilafəti ilə münasibətlərinin xarakteri ilə müəyyən olunur. Xəzərlər və ərəblər Böyük İpək Yolu tarixində yeni bir mərhələ açmağa nail oldular. Məhz Xarəzmdən Dneprin orta və aşağı axarlarınadək uzanan ticarət yollarını ciddi nəzarət altında saxlayan Xəzər xaqanlığının tarix səhnəsində olduğu dönəmdə İpək Yolunun Yaxın Şərqə uzanan marşrutları tarixi Azərbaycan ərazilərindən – Şimali və Cənubi Azərbaycandan keçməyə başlamışdır. "Azərbaycan ərəb-xəzər dönəmində İpək Yolu üzərində (VIII – X əsrlər)" adlandırdığımız bu fəsildə, biz ərəblər və xəzərlər arasında ticarət tərəfdaşlığının təşəkkül şərtlərini, bundan sonra Azərbaycan şəhərlərinin iqtisadi inkişafını, Azərbaycan ərazisində beynəlxalq ticarət infrastrukturunun genişlənməsini, eləcə də bu şərtlərin Cənubi və Şimali Azərbaycanın iqtisadi resurslarının və əhalisinin konsalidasiyasına təsiri məsələlərini nəzərdən keçirmişik.

Bu fəslin müvafiq adlandırılmış bölümlərində Şimali və Cınubi Azərbaycan əraziləri üzərindən uzaq beynəlxalq ticarətin aparılması üçün vacib olan siyasi, sosial və iqtisadi şərtlərin təşəkkülü sərf-nəzər edilir. Paraqraf 4.1 və onun alt bəndlərində Mərkəzi Avrasiya çölləri üzərindən ticarət marşrutlarının salınmasına, Qafqaz və Azərbaycan ərazisindən keçən yolların açılmasına dair ərəb-xəzər müharibələrinə qədərki tarixi və siyasi şərait təsvir edilir. Son Sasanilər dövründə Qafqazdan keçən ticarət yolları Qərbi Türk Xaqanlığı ilə Bizansın qurulmuş ittifaqı ilə müəyyən edilirdi.[77]

---

[77] Luigi De Rosa, "Silk and the European Economy," in Significance of Silk Roads in the History of Human Civilizations, ed. Sigimura Toh Umesao Tadao, Senri Ethnological Studies (Osaka: National Museum of Ethnolgy, 1992)., p. 194; Менандр, "Менандра Византийца продолжение Истории Агафиевой," Византийские историки: Дексипп, Эвнапий, Олимпиодор, Малх, Петр

Paraqraf 4.2 daxilində ərəb-xəzər müharibələrinin nəticələri İpək Yolunun əsas marşrutları boyunca ərəb ekspansiyası strategiyası və Xəzər sahillərindən Çin sərhədlərinədək ticarət yollarının təhlükəsizliyi kontekstində ardıcıl olaraq sərf-nəzər edilir. [78] , ekspansiyadan sonra uzaq ticarət mallarına tələbatın strukturunun dəyişməsi nəticəsində ticarət marşrutlarının özlərinin dəyişməsi məsələləri araşdırılır. 4.3-cü bənd ticarət strukturunun dəyişməsi və Xəzər Kaqanlığının nəzarətində olan ərazilərdən tədarük olunan mallara tələbatın artması ilə əlaqədar Yaxın Şərq bazarlarına gedən əsas ticarət yollarında dəyişikliklərin səbəblərini araşdırır. [79] Qafqaz köçərilərinin, xəzərlərin və onların sələflərinin Arran ərazisinə tədricən nüfuz edib məskunlaşması haqqında yazılı mənbələrdən dəlillər verilir. [80] Bölmə 4.4. antik dövrdə və orta əsrlərdə şimal-cənub siyasi və ticarət əlaqələrinin zonası kimi qədim Albaniyanın və ya Arranın ümumi xarakteristikasını və əhəmiyyətini ehtiva edir. Fəslin 4.5-ci bənddə uzun müddət davam edən hərbi qarşıdurmadan sonra ərəblərlə xəzərlər arasında ticarət tərəfdaşlığının formalaşması

---

Патриций, Менандр, Кандид, Ноннос и Феофан Византиец, переведенные с греческого Спиридоном Дестунисом (Санкт-Петербург1860), http://krotov.info/acts/05/marsel/ist_viz_06.htm., c. 375, 381

[78] V. Minorsky, "Tamim Ibn Bahr's Journey to the Uyghurs," // Bulletin of the School of Oriental and African Studies XII, no. 2 (1948)., p. 279-305; Ф.М. Асадов, Арабские источники о тюрках в раннее средневековье (Баку: Элм, 1993)., c. 31-33.

[79] R.K. Kovalev, "Commerse and Caravan Routes Along Northern Silk Roads (Sixth-Ninth Centuries). Part I: The Western Sector.," Archivum Eurasiae Medii Aevi 14(2005)., p. 80; Abu Ishaq Ibrahim b. Muhammad al-Farisi al-ma'ruf bi al-Karkhi Al-Istakhri, Al-Masalik Wa Al-Mamalik (al-Kahira: Wizarat as-saqafa wa al-irshad al-qaumi, 1961)., p. 131; Abu Uthman Amr ibn Bahr Al-Djahiz, "At-Tabassur Bi at-Tidjara," Revue de l'Academie Arabe de Damas XII(1932)., p. 342

[80] Sebeos, The Armenian History Attributed to Sebeos, trans. Robert W. Thomson and Historical commentary by Tim Greenwood with the assistance by James Howard-Johnston (Liverpool: Liverpool University Press,, 1999)., p. 32; Imamo Ahmed ibn Yahja ibn Djabir al-Beladsori, Liber Expugnationis Regionum (Lugduni Batavorum: E.J. Brill, 1866)., p. 194-195; Фарда Асадов, Тюркское население Кавказской Албании в Сасанидский период (V – VII вв.) // Transcaucasica, no. 3 (2016)., c. 29-43

mərhələləri izlənilir. Bununla birlikdə burada iki alternativ yol ilə malların şimaldan cənuba və geriyə maneəsiz daşınmasını təşkil etmək üçün Xəzər xaqanlığının həyata keçirdiyi tədbirlər təsvir edir. Əvvəlcə rus tacirlərinin transxəzər dəniz ticarət əməliyyatlarına cəlb olunması ilə bağlı xəbərlər təhlil edilir, daha sonra Şərqi Avropadan Xəzər dənizinin şimal-qərb sahillərinə qədər quru yollarının təhlükəsizliyinin təmin edilməsi tədbirləri işıqlandırılır.[81]

Bölmə 4.6. Orta və Yaxın Şərq bazarlarına aparan iki alternativ marşrutu ətraflı nəzərdən keçirir: Xəzər dənizindən keçən dəniz yolu və daha sonra şərq və cənub və cənub-qərbə quru yollar şəbəkəsi boyunca olan magistral,[82] və ikincisi, müasir Azərbaycanın və Şimali İranın ərazilərdən keçən quru yolu. Cənubi və Şimali Azərbaycanın demək olar ki, bütün ərazisini əhatə edən əsas magistral yolların qolları da inkişaf etməkdə idilər.[83]

Bu bölümün ayrı-ayrı alt bölümləri: quru ticarət yollarının mərkəzi və buradan yolların qərbə, cənuba, cənub-şərqə və şimal-şərqə ayrılması məntəqəsi olan Bərdəyə; qeyri-müsəlman xəzər vilayətləri və müsəlman diyarları arasında ticarət əməkdaşlığının

---

[81] П.К. Коковцов., Еврейско-Хазарская переписка (Ленинград Издательство Академии Наук СССР, 1932)., с. 83-84; Thomas S. Noonan, "Fluctuations of the Islamic Trade with Eastern Europe During the Viking Age," Harvard Ukrainian Studies 16, no. 3/4 (1992)., p. 239.

[82] Abu al-Kasim Ubaydallah Ibn Abdallah Ibn Khordadhbeh, Kitab Al-Masalik Wa'l-Mamalik, ed. M.J. de Goeje, editio secunda (photomechanice iterata) ed., Bibliotheca Geographorum Arabicorum (Lugduni Batavorum: E.J. Brill, 1967)., p. 124, 134; Franciszek Kmietowicz, "The Term of Radaniyya in the Work of Ibn Khurdadbeh," Folia Orientalia (Krakow) XI (1969)(1970)., p. 169-171; Ф. М. Асадов, Хазария, Византия И Арабский Халифат В Борьбе За Контроль Над Торговыми Путями Евразии В Ix-X Вв. // Кавказ и глобализация 6, no. 4 (2012), с. 165.

[83] Ibn Khordadhbeh, Kitab Al-Masalik Wa'l-Mamalik, p. 119-120, 153, 295; Nailə Vəlixanlı, Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər (Bakı: Elm və təhsil, 2016)., s. 468-469; Ф. М. Асадов, Русы в Каспийском море и на Шелковом Пути в середине IX - начале X вв., / Дорога Страбона" как часть Великого Шелкового пути: Материалы международной конференции (Баку 28-29 Ноября 2008 Г.), ред. С.М. Мустафаев С.Г. Кляшторный (Самарканд-Ташкент: SMI-ASIA, 2009), с. 20-22.

sərhəd mərkəzi olan Dərbəndə; ticarət mərkəzlərində fəaliyyət göstərən kustar istehsal sahələrini xammalla təchiz edən Azərbaycan kənd təsərrüfatının inteqrasiya olunmuş bölgələrini bir-birinə bağlayan marşrutlara həsr edilmişdir.[84]

Dördüncü fəslin 4.7 bölümü beynəlxalq ticarət mübadiləsi mərkəzləri və uzaq ticarət karvanlarının hərəkəti üçün infrastruktur və xidmət sahəsi təşkilatçıları, eləcə də beynəlxalq ticarət vasitələrinin, gəlib-keçən tacirlərin və ölkə əhalisinin istifadə etdiyi gündəlik tələbat mallarının yerli istehsalçıları kimi Azərbaycan şəhərlərinin beynəlxalq ticarətdə iştirakı formalarından bəhs edir. Fəslin sonunda 4.8 bölümdə ərəb-xəzər tərəfdaşlığı dövründə Azərbaycanın beynəlxalq ticarət marşrutlarındakı tranzit vəziyyətinin nəticələri xarakterizə olunur, bu marşrutların fəaliyyət mərhələləri və onların iqtisadi inkişaf, daxili ticarət əlaqələrinin formalaşması və ölkənin konsolidasiyası üçün nəticələri vurğulanır. Azərbaycan ərazisindən və Xəzər dənizindən keçən intensiv ticarət əməliyyatları daxili bazarın inkişafına, beynəlxalq ticarət üçün malların istehsalına və ticarət yolları boyunca yerləşən şəhərlərin çiçəklənməsinə səbəb olurdu. Ərəblərlə xəzərlərin ortaqlığı ticarət yollarının kənarında qalan Bizansın maraqlarını pozurdu. Bizansın keçmiş ticarət yollarında siyasi sabitliyi pozmaq siyasətinin orbitinə Varyaq-slavyan dəstələrinin daxil olması Rus'un Cənubi Qafqazdakı müsəlman mülklərinə basqınlarının başlanğıcında özünü göstərirdi. Nəticədə ticarət axınının bir hissəsi Azərbaycandan yan keçdi, X əsrin ortalarında Xəzər Xaqanlığının gəlirləri azaldı və Azərbaycanda ticarət mərkəzlərinin əhəmiyyəti kiçildi.[85]

Dissertasiyanın sonuncu hissəsi – **"Nəticələr"** bölümü tədqiqatın mənbəşünaslıq bazasının mötəbərliyi, dünya və

---

[84] Al-Istakhri, Al-Masalik Wa Al-Mamalik, p. 131; Al-Djahiz, At-Tabassur Bi at-Tidjara, p. 335-336, 346

[85] А.Н. Сахаров, Дипломатия Древней Руси: IX - первая половина X в. (Москва: "Мысль", 1980)., с. 74-75, 112, 128; Donald F. Dixon, "Varangian-Rus Warrior-Merchants and the Origin of the Russian State," Journal of Macromarketing 18, no. 1 (1998), p. 55-56; Abu al-Kasim Ibn Haukal, Kitab Surat Al-Ard (Beirut: Manshurat Dar Maktabat al-Hayat, 1992)., p. 290-291.

Azərbaycan tarixşünaslığında xəzərşünaslıq araşdırmalarının inkişaf qanunauyğunluğu, Azərbaycanın etnik və konfessional identikliyinin formalaşmasında xəzərlərin rolu, Azərbaycan şəhərlərinin iqtisadi-mədəni inkişafında və ölkə əhalisinin konsolidasiyasında ərəb-xəzər tərəfdaşlığı dönəminin əhəmiyyəti problemlərinə aid əldə olunmuş nəticələri əhatə edir.

Əsər Xəzər dövlətinin tarixi və dünya-tarixi əhəmiyyəti ilə bağlı ziddiyyətli fikirlərin səbəblərindən biri kimi xəzərlər haqqında yazılı mənbələrdən əldə edilən sübutların sistemləşdirilməsi problemini qoyur və araşdırır. Erməni və gürcü mənbələrində xəzərlərin erkən xatırlanmasının anaxroniz olması fikri isbat edilir ki, bu da bəzi tədqiqatçılara xəzərlərin qeyri-türk mənşəyi haqqında mühakimə yürütməyə imkan verirdi. Kalankatuykdan olan alban tarixçisi Musanın xəzərlər haqqında xüsusi məlumatlı olması onun xəbərçilərinin Qafqaz Albaniyası ərazisində xəzərlərlə uzun və canlı tanışlığının olmasında xəbər vermiş olur. Rus salnamələrində, Bizans müəlliflərində, Çin mənbələrində, daşüstü yazılmış türk mətnlərində və xəzər-yəhudi yazışmalarının sənədlərində xəzərlərlə bağlı xəbərlərin qeydə alınmasının siyasi motivləri və tarixi şərtləri səciyyələndirilir. Ərəb müəlliflərinin xəzərlər və Xəzər coğrafiyası haqqında biliklərinin hüdudları müəyyən edilmişdir.

Xəzər elitasının yəhudiliyi haqqında məlumatlar və Xəzər yəhudilərinin iştirakı ilə Şərqi Avropa yəhudi icmasının formalaşması ilə bağlı fərziyyələr müasir dünyanın siyasi problemləri ilə əlaqə mühiti yaratmış, xəzərşünaslığın onlara qarşı həssaslığını artırmış və tarixi keçmişi Xəzər Xaqanlığının tarixi ilə bağlı olan ölkələrin milli tarixşünaslıqlarına təsir göstərmişdir.

Son Sasani və Ərəb dövrlərində xəzərlərlə bağlı xəbərlərin təhlili onu deməyə əsas verir ki, Azərbaycan ərazisinin bir hissəsi müəyyən vaxtda, VI əsrin son rübündə - VII əsrin birinci rübündə xəzərlərin siyasi təsir dairəsinin bir hissəsi idi və bu torpaqların əhalisi ərəblərin işğalı ərəfəsində Qafqazda Xəzər Konfederasiyasının yaranmasının iştirakçısı ola bilərdi. Ərəb istilasından əvvəl və sonra ölkənin türk əhalisinin artmasında xəzərlərin böyük rolu olmuşdur.

Cənubi Qafqazda ərəblərlə xəzərlərin qarşıdurmasının nəticəsi müsəlman torpaqları ilə xəzərlər arasında sərhədin sabitləşməsi və keçmiş müxaliflər arasında İpək Yolu üzərində ticarət tərəfdaşlığının yaradılması oldu. Bu, təxminən bir əsr ərzində Şimali və Cənubi Azərbaycan ərazilərindən, eləcə də dəniz yolu ilə Xəzər dənizi vasitəsilə Mərkəzi Avrasiyadan Yaxın Şərqə mal və texnologiyaların daşınmasının əsas marşrutlarını istiqamətləndirdi.

Azərbaycan ərazisindən keçən gəlirli beynəlxalq ticarət daxili bazarın və karvan ticarəti infrastrukturunun formalaşmasına, indiki Şimali və Cənubi Azərbaycan ərazilərində şəhərlərin və yerli kənd təsərrüfatı və sənətkarlıq istehsalının inkişafına kömək etdi. Ərəb administrasiyası müsəlman xəzərlərinin Azərbaycana köçürülməsini təşviq etdi ki, bu da xəzərlərin iştirakı ilə ölkə əhalisinin türkləşməsi və islamlaşması proseslərinin birləşməsinə təkan verdi.

Azərbaycan tarixində bu mərhələnin nəticələri gələcək Azərbaycan xalqının tarixi məkanının əsas istehsal, iqtisadi və demoqrafik xüsusiyyətlərinin formalaşmasının başlanğıcı kimi qiymətləndirilməlidir. Bölgədə ərəb-Xəzər əməkdaşlığından sonra xilafətdə mərkəzdənqaçma meyllərinin artması və Xəzər xaqanlığının süqutu, təəssüf ki, ərəblər dövründə Azərbaycan üçün müsbət meyillərin və nailiyyətlərin möhkəmlənməsinə və inkişafına kömək etmədi. -Ticarət yollarında Xəzər əməkdaşlığı.

İpək Yolu üzərində ərəb-Xəzər ortaqlığı dövrünün başa çatmasına X-cu əsrin birinci yarısında Kiyev Rusunun hərbi resurslarını (882-ci ildən sonra) uğurla öz orbitinə cəlb edən Xəzər dövlətində sabitliyin pozulmasına yönəlmiş Bizans siyasəti səbəb oldu. Digər tərəfdən, Bizansın vassalları olan gürcü knyazlıqları da Azərbaycanın cənub-qərbində ticarət yollarında təhlükə yaratmağa başladılar. Zəifləmiş Xəzər dövləti artıq Ərəb xilafətinin güclü tərəfdaşı deyildi və keçmiş ticarət yollarının təhlükəsizliyinə təminat verə bilmirdi. Ərəb xilafətində X-cu əsrdə başlayan mərkəzdənqaçma meyilləri onun Bizans siyasətinə qarşı durmaq yerli sülalələrin ambisiya və maraqlarını cilovlamaq qabiliyyətini azaltdı və malların Xarəzmdən Volqa-Baltik yolu ilə Avropaya və cənuba doğru "Varyaqlardan Yunanlara" ticarət yolları ilə daşınmasına səbəb oldu.

Ərəb xilafətinin hakimiyyəti dövründə Azərbaycan və Xəzər dövlətinin tarixi talelələri bir-birinə bağlı idi və Xəzərin süqutu ölkənin demoqrafik və iqtisadi konsolidasiya prosesini ləngitdi.

**Disserasiya işinin əsas məzmunu müəllifin aşağıdakı mətbu əsərlərində öz əksini tapmışdır.**


1. Арабские источники о тюрках в раннее средневековье / Ф.Асадов. - Баку: Элм, - 1993. - 203 с.
2. Oil Caravans of XXI century on the Great Silk Road: What the future has in store for Azerbaijan and Kazakhstan // - Stockholm: Central Asia and the Caucasus, - 2000, No 6, - p. 179-185.
3. VII. – IX. Yuzillarda Guney Hazar Bolgesinde Hukumranlik Suren Turk Suli Hanedani // Turkler: Yeni Turkiye Yayimlamalari, - Ankara: 2002, cilt. 4, - s. 311-316.
4. VIII.-X. Yuzillarda Abbasi Ordusundaki Turk Muhafizlarin Sayisi ve Onlar Icin Yapilan Harcamalar // Turkler: Yeni Turkiye Yayimlamalari, - Ankara: - 2002, cilt 4, - s. 375-380. URL: http://www.altayli.net/viii-x-yuzyillarda-abbasi-ordusundaki-turk-muhafizlarin-sayisi-ve-onlar-icin-yapilan-harcamalar.html
5. Government Regulations of Staple Commodity Prices in Pre-Ottoman Egypt // XIII Türk Tarihi Konqresi. III cilt, - Ankara: Türk Tarihi Kurumu Basımevi, - 2002, - s. 1635-1642.
6. The Caspian Region at a Crossroad: Challenges of a New Frontier of Development. Edited by Hooshang Amirahmadi. NY: St Martin's Press, 2000, 311 pp. Book review // - Oxford: Journal of Islamic Studies, - 2002, Vol. XIII, number 1, - pp. 78-82. URL :http://jis.oxfordjournals.org/content/13/2/227.full.pdf+html
7. Three Ismail as-Samani's campaigns to the land of Turks? // - Samarkand: Bulletin of UNESCO International Institute for Central Asian Studies, - 2008, vol. 7, - p. 36-49.
8. Русы в Каспийском море и на Шелковом Пути в середине IX-начале X вв. // «Дорога Страбона» как часть Великого Шелкового Пути». Материалы международной конференции. Баку 28-29 сентября, 2008 г. - Самарканд-Ташкент:

Международный Институт Центрально-Азиатских Исследований, - 2009, - с. 14-24.
9. Длинные стены: забытая граница с кочевниками-тюрками в Центральной Азии в 7-10 вв. // Цивилизации и культуры Центральной Азии в единстве и многообразии. Материалы международной конфренции, - Самарканд, 7-8 сентября, 2009 г, - Ташкент: 2010, - с. 34-42.
10. Сведения арабских авторов Ибн Хордадбеха и ал-Масуди о транскаспийских торговых операциях хазар и русов в IX- X вв. // - Bakı: Azərbaycan Elmlər Akademiyasının Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, "Elmi Araşdırmalar", - 2011, X buraxılış, - s. 315-321.
11. Хазария и Хорасан в VIII – IX вв.: политические и торговые связи. // - Самарканд: Вестник Международного Института Центрально-Азиатских Исследований (ЮНЕСКО), - 2012, вып. 15, - с.70-82.
12. Хазария, Византия и Арабский халифат в борьбе за контроль над торговыми путями Евразии в IX - X веках. // - Стокгольм: Кавказ и глобализация. Журнал социальных, политических и экономических исследований, - 2012, Том 6, вып. 4, - с. 159-171.
13. Khazaria, Byzantium, and the Arab Caliphate: Struggle for Control over Eurasian Trade Routes in the 9th-10th centuries // - Stockholm: The Caucasus & Globalization, Journal of Social, Political and Economic Studies – 2012, vol. 6, issue 4, - p. 140-149.
14. Khazar Studies locked between Scarcity of Research Sources and Contemporary Policy Concerns // - London: The Eurasia Studies Society Journal, - 2013, vol.2, No.3. April 2013. URL: (http://eurasiahistory.files.wordpress.com/2013/03/farda-asadov-tess-eurasia-journal-vol-2-no-3-april-20132.pdf .
15. Рецепции иудейского и мусульманского институтов верховной власти в хазарском обществе в период предполагаемых смен веры (VIII-IX вв.) // Ш. Мустафаев, Мишель Эспань, Светлана Горшенина, Клод Рапэн,

Амриддин Бердимурадов, Франц Гренэ (ответственные редакторы). Культурный трансфер на перекрестках Центральной Азии: до, во время и после Великого Шелкового Пути. - Париж – Самарканд: МИЦАИ, - 2013 г., – с. 104-110.

16. What do Arab sources say about Scandinavians in the Caspian before mid-9th century CE? // Thor Heyerdahl's' search for Odin. Vibeke Roggen (ed.), - Oslo: Novus Forlag, - 2014, - p. 271-280.
17. Xəzərlərin ərəblərlə İpək yolu ticarətində tərəfdaşlığı //- Bakı: Azərbaycan Elmlər Akademiyasının Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, “Elmi Araşdırmalar”, - 2014, X Buraxılış, - s. 227-232.
18. Купцы и товары Хазарского каганата на торговых маршрутах Шелкового Пути в VI-IX вв. // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, - 2015, № 3, - s. 142-153.
19. Полемика о длительности доминирования хазар на Южном Кавказе в хазароведческих исследования второй половины XX века. // Средневековый Восток: проблемы историографии и источниковедения. Памяти Героя Советского Союза академика З.М.Буниятова. - Баку: Элм,- 2015, - с. 16-35.
20. Тюркское население Кавказской Албании в Сасанидский период (V-VII вв.) // - Москва: TRANSCAUCASICA. Южный Кавказ: история, религия, общество. Отв. Ред. З.В.Кананчев, – - 2016, Вып. 3 (2015-2016), - с. 29-43.
21. Transformation de la function de khagan dans l'empire Khazara l'epoque des changements de religion” // Asie Centrale : Transferts Culturels le long de la route de la soie. Michel Espagne, Svetlana Gorshenina, Frantz Grenet, Shahin Mustafayev, Claude Rapin (éd.), - Paris: Vendémiaire, - 2016, - pp. 261-271.
22. Jurjan in the External Relations and the History of the Khazar Khaganate ($7^{th}$ – $10^{th}$ centuries) // Central Eurasia in the Middle Ages. Studies in Honour of Peter B. Golden. Edited by Istvan Zimonyi and Osman Karatay. – Wisbaden: Harrassowitz Verlag, - 2016, - p. 23-39.

23. Reinstatement of long-distance international trade after the Arab conquest: The Khazar-Arab partnership on the Silk Road in the IXth-Xth centuries // - Dauegu (Soth Korea): Acta Via Serica, Keimyung University, - 2016, Vol, 1, - pp. 33- 50.
24. Хазары и барсилы в исследованиях С.Г.Кляшторного // Тюрко-монгольский мир в прошлом и настоящем. Материалы междунардной конференции, посвященной памяти Сергея Григорьевича Кляшторного (1928-2014). - Санкт-Петербург-Улан-Батор: Российская Академия Наук, Институт Восточных рукописей/Монгольская Академия Наук, Институт Истории и Археологии, - 2016, - с. 48-58.
25. What does the evidence of Khazar Judaism say about expansion of world religions in the Caucasus // Religions in the Caucasus - Baku: TEAS-Press, - 2016, - p. 31-41.
26. İpek Yolu Ticaretinde Hazar Kağanlığın Ürünleri ve Tuccarları (IX-X Yüzyillar) // Uluslararası "İpek Yolu'nun Yükselişi ve Türk Dünyası". Cilt 2, İpek Yolunda Bilgi ve Siyaset. Editör Fahri Atasoy, - Ankara: - 2016, - s. 217-223.
27. Əl-Həmədani, İbn əl-Fəqih (Ölkələr haqqında məlumatlar). Məşhəd əlyazmasında "Türklər haqqında deylənlər" və "Bəzi türk şəhərləri və onların möcüzələri" fəsilləri / İbn əl-Fəqih əl-Həmədani. - Ərəb dilindən çevirən, giriş hissəsi və şərhlərin müəllifi Fərda Əsədov. Elmi redaktor: akademik Şahin Mustafayev. - Bakı: "Adiloğlu" nəşriyyatı, - 2017. - 97 s.
28. Сул и Чола: два топонима на противоположных берегах Каспийского моря в VI-VII вв. // - Москва: Восток (Oriens), Институт Востоковедения РАН, - 2017, №1, - сс. 57-69 https://www.elibrary.ru/item.asp?id=28416197
29. Ellac and Ilek: What Does the Study of an Ancient Turkic Title in Eurasia Contribute to the Discussion of Khazar Ancestry? / - Dauegu (Soth Korea): Acta Via Serica, Keimyung University, - 2017, Vol, 2, no. 2, - p. 113-32.
30. Формула власти Юсуфа Баласагуни: элементы древнетюркской идеологии и государственности в поэме «Кутадгу билик» // Эпоха Юсуфа Баласагуни. История,

литература, материальная культура, - Бишкек: - 2017, - с. 9-20
31. Qazaqlïq, or Ambitious Brigandage, and the Formation of the Qazaqs: State and Identity in Post-Mongol Central Eurasia By Joo-Yup Lee. Book review // - Dauegu (South Korea): Acta Via Serica, Keimyung University, - 2017, v. 2, issue 2, - p. 163-167.
32. Рецензия на книгу: «Qazaqlïq, or Ambitious Brigandage, and the Formation of the Qazaqs: State and Identity in Post-Mongol Central Eurasia. By Joo-Yup Lee» // - Алматы: Вестник Казахстанского Национального Университета им. Ал-Фараби. Серия историческая, – 2018, №2 (89) - с. 305-308.
33. Xəzərlər və Azərbaycan / F. Əsədov, redaktor akademik Ş.M.Mustafayev. - Bakı: Elm və Təhsil nəşriyyatı, - 2018. - 240 s.
34. Caspian Sea // Encyclopaedia of Islam, THREE, Edited by: Kate Fleet, Gudrun Krämer, Denis Matringe, John Nawas, Everett Rowson. – Leiden: Brill, - First published online: 2018. First print edition: 2018, 2018-4, - pp. 5-7. DOI: 9789004356641. URL: http://referenceworks.brillonline.com/browse/encyclopaedia-of-islam-3
35. Caucasian Albania: A contact zone of sedentary population and their states with Eurasian nomadic people (V-VII centuries CE) // - Baku: Khazar Journal of Humanities and Social Sciences, - 2019, Special issue, - p. 11-20.
36. L’Albanie du Caucase une zone de contact entre une population sedentaire organisee en Etats et un peuple nomade d’Eurasie (V$^{e}$-VII$^{e}$ siecle de notre ere) // La Montagne des langues et des peuples: imbrications et transferts dans l’espace du Caucase. Sous la direction de Michel Espagne, Hamlet Isaxanli, Shahin Mustafayev, - Paris: Editions Demopolis, - 2019, - p. 109-117.

Dissertasiyanın müdafiəsi 14 mart 2024-cü il tarixində saat 10⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:

Həcm:

Tiraj: